RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 173 (9628) 15 avqust 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan güclü idman dövlətidir

## Prezident İlham Əliyev Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən dövlətimizin başçısı **İlham Əliyev** dedi:

- İlk növbədə, idmançılarımızı gözəl qələbələr münasibətilə təbrik edirəm. Siz Yay Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmisiniz, Azərbaycan Bayrağını ucaltmısınız, bütün xalqımızı sevindirmisiniz. Sizi həm təbrik edirəm, həm də sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir. İdmançıları, onların məşqçilərini bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm.

Onu da bildirmək istəyirəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır.

Xüsusilə qızıl medalçılarımızı - Hidayəti və Zelimi ürəkdən təbrik etmək istəyirəm. Onlar Olimpiya Oyunlarının ilk günlərində bu qələbə sevincini xalqımıza bəxş etmişlər. Onların həm peşəkarlığı, həm idmandakı uğurları və eyni zamanda davranış qaydaları, əlbəttə ki, hər birimizi ürəkdən sevindirdi. Onlar uzun illər ərzində öz çəki dərəcələrində liderliyi qoruyublar və bu liderliyi Olimpiya Oyunlarında bir daha təsdiq etmişlər. Onların məşqçilərini təbrik edirəm, Cüdo Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Federasiyada işlər, təlim-məşq prosesi düzgün qurulanda, abhava gözəl olanda nəticə də, əlbəttə ki, göz qabağındadır.

→ 2

# Təbiətin səxavəti, dövlətin iradəsi, neftçinin hünəri ilə...

## "Biz bu sərvəti... cəmiyyətə yönəltmişik, inklüziv cəmiyyət qura bilmişik"

"Günəşli"nin tarixinə nəzər salsaq, deyilənlərin əyani təsdiqini görərik. Neft üzrə ekspert İlham Şabanın araşdırmalarına əsaslanaraq deyək ki, struktur 1957-ci ildə seysmik kəşfiyyatın "əks olunan dalğa üsulu" ilə aşkar edilib. Yataq 1979-cu ildə kəşf olunub. O, "Neft Daşları" yatağından 12 kilometr cənub-şərqə doğru yerləşir. 1977-ci ildə "Günəşli" sahəsində Xəzər dənizində ilk dərindayaqlı stasionar platformanın quraşdırılması başa çatıb. Platforma dənizin 84 metr dərinliyində quraşdırılıb. Burada ilk quyunu qazma ustası, Sosialist Əməyi Qəhrəmanı İsrafil Hüseynovun briqadası qazıb. 1979-cu il avqustun 28-də 3455-3423 metr intervalda Balaxanı layının X horizontundan gündəlik 200 tondan çox debitlə neft alınıb.



Sovet dövründə bu yataq "28 Aprel" adlanırdı, sonra ona "28 May" adı verildi. 1992-ci ildən isə yataq "Günəşli" adı ilə tanınır. Hazırda bu yataq "28 May" NQÇİ tərəfindən istismar olunur və idarənin əldə etdiyi hasilatın əksər hissəsi onun payına düşür. Söhbət əlbəttə, "Günəşli"nin dayaz hissəsindən gedir.

Qeyd edək ki, "Günəşli"nin işlənməsi və özünü doğrultması Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə olmuşdu. Xəzərdəki daha dərin laylara nüfuz edilməsi Ümummilli Liderin böyük arzularından idi və bunun üçün mümkün olanı həyata keçirirdi. Qocaman neftçilərdən biri danışır ki, Neft Daşlarına səfərlərinin birində Ulu Öndər estakadada işçilərlə səmimi söhbət etdiyi zaman birdən onun baxışlarının uzaqlara dikildiyini görüblər. "İndi bax, oraları öyrənmək, kəşf etmək lazımdır, daha dərin qatlardan neft çıxarmaq lazımdır," - Heydər Əliyev əlini dənizlə üfüqün birləşdiyi yerə uzadaraq belə dedi. Bu, həmin yerlər idi ki, orada "Azəri" vardı, "Çıraq", "Günəşli"nin daha dərin hissələri vardı…

Ümummilli Lider bu arzuları xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələndən sonra gerçəkləşdirdi. Azərbaycanın yeni neft strategiyasını həyata keçirdi, "Əsrin müqaviləsi" ilə təkcə neft sənayesinə deyil, bütün ölkəyə yeni yüksəliş gətirdi. "Dərinsulu Günəşli"nin işlənməsi də məhz bu layihənin - "Azəri-Çıraq-Günəşli"nin (AÇG), yəni "Əsrin müqaviləsi"nin tərkib hissəsi oldu.

1997-ci ilin noyabrında "Çıraq"dan, 2005-ci ilin fevralında isə "Azəri"dən neft alındı. Növbə "Dərinsulu Günəşli"nin idi. Yataqda quraşdırılacaq platforma ölkə daxilində inşa edilirdi. AÇG-dəki digər işlər kimi qurğuların tikintisi də Prezident İlham Əliyevin şəxsi nəzarətində idi.

→ 10

# Azərbaycan birləşdirici gücə çevrilir

## Neokolonializmə qarşı qlobal mübarizənin mərkəzi olan ölkəmiz yeni təşəbbüslər irəli sürür

Azərbaycan Fransanın müstəmləkə siyasətini beynəlxalq səviyyədə ifşa edir. Bu məqsədlə ölkəmizin sədrliyi dövründə Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən Bakı Təşəbbüs Qrupu (BTQ) yaradılıb.

Artıq bir ildən çoxdur ki, qrup müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. BTQ tərəfindən artıq 15-dək beynəlxalq konfrans təşkil edilib. Onlardan 4-ü BMT-nin Nyu York, Cenevrə və Vyanadakı qərargahlarında, biri İstanbulda, digərləri isə Bakıda keçirilib.

Bu baxımdan ötən ayın 17-də Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və BTQ-nin dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda Birinci Qurultayın keçirilməsi xüsusi əhəmiyyət kəsb etdi.

→ 6

# Qərb Qafqazda sülh istəmir

## Ermənistanın ABŞ və digər ölkələr vasitəsi ilə silahlandırılması bunu təsdiqləyən reallıqdır

Araşdırmalar nəticəsində bəlli oldu ki, adı "Sülh fondu" olan təşkilatın Ermənistana ayırdığı 10 milyon avro ölkənin silahlı birləşmələrinin maddi-texniki bazasının gücləndirilməsi üçündür. ABŞ-nin yardımları isə daha çoxdur. Rəsmi Vaşinqton yuxarıda sadalanan silahlardan əlavə, Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən minihücum pilotsuz təyyarələri, kiçikölçülü minalar və digər döyüş sursatlarını da Hayastana hədiyyə edib.

→ 7



# ABŞ-nin qanunsuz silah yardımı

## Ermənistanın dövlətçiliyini təhdid edir

Ölkəmiz nə ABŞ, nə də digər qərəzli mövqe sərgiləyən dövlətlər qarşısında heç bir öhdəlik götürməyib. Azərbaycan heç bir dövlətin daxili işinə müdaxilə etmir və öz daxili işinə müdaxiləni də yolverilməz hesab edir. ABŞ və digər qərəzli ölkələr özlərinin günbəgün artan dövlət borclarından başlayaraq, irqi ayrı-seçkiliyin, polis zorakılığının, kriminal hadisələrin baş alıb getməsi və digər çoxsaylı daxili problemləri ilə məşğul olsalar, daha düzgün olar.

Bu gün dünyanın müxtəlif bölgələrində baş verən siyasi kataklizmlərdə, müharibələrdə, dövlət çevrilişlərində, vətəndaş müharibələrində ABŞ-nin iştirakının göz önündə olduğunu vurğulayan müsahibimiz xatırladıb ki, uzun illər Əfqanıstanı işğal altında saxlayan Amerika bu ölkədə heç bir abadlıq yaratmayıb, bütün ölkəni narkotik plantasiyasına çevirib: "Son məlumatlara görə, ABŞ Əfqanıstanı tərk etdikdən sonra bu ölkədə narkotik plantasiyalarının həcmi 20 dəfədən çox azalıb. Bu gün dünyada baş verən bütün savaşların ssenari müəllifi məhz Amerikadır. Ermənistana ardıcıl maliyyə və humanitar yardımın göstərilməsi, silahlandırılması istiqamətində atılan addımlar, Paşinyan başda olmaqla Ermənistan rəsmilərinə edilən siyasi reveranslar Avropa təsisatlarının ədalətli ola bilməmələrinin sübutudur..."

→ 7

# Bakı COP29-un yolunu gözləyir

Paytaxtımız üç ay sonra 10 gün ərzində daha bir beynəlxalq qlobal tədbirə evsahibliyi edəcək. Artıq xeyli vaxtdır COP29 dediyimiz həmin tədbirə hazırlıq gedir. Şəhərin siması gündən-günə dəyişir, daha cəlbedici olur. Bu dəyişikliyi yaradan, cəlbediciliyi bəxş edən inşaatçılar, abadlıq işçiləri gecə-gündüz, isti-soyuq bilmədən çalışırlar. Çalışırlar ki, Bakı bu dəfə də qonaqları heyran etsin, onlara unudulmaz günlər yaşatsın.

→ 8



# Azərbaycan güclü idman dövlətidir

## Prezident İlham Əliyev Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib
















*Əvvəli 1-ci səh.*

Daha çox medal qazana bilərdik, bəli, qazana bilərdik. Amma bu, idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir. Onu da bildirməliyəm ki, bizim idmançılarımız beş idman növündə medallar qazanmışlar: cüdo, boks, taekvondo, yunan-Roma güləşi, sərbəst güləş üzrə. Yəni bu da onu göstərir ki, Azərbaycanda idmanın bir çox növləri inkişaf edir.

Əlbəttə ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm dünya çempionatlarına hazırlıq işləri gedəcək. Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından sonra, xüsusilə ölkəmiz üçün uğurlu oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq.

Əlbəttə, tam əminəm ki, həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayı çox olacaq və bunu arzulayıram. Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik.

Əlbəttə ki, bu nailiyyətlər, eyni zamanda medallar qazanmış idmançıların məsuliyyətini də artırır. Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir.

Bir daha sizi ürəkdən təbrik etmək və sizə yeni qələbələr, uğurlar arzulamaq istəyirəm.

❖ ❖ ❖

Olimpiya çempionu, cüdoçu **Hidayət Heydərov** çıxış edərək dedi:

- Cənab Prezident, bu gün bizi buraya dəvət etdiyiniz üçün çox sağ olun. Mən çox xoşbəxtəm ki, dünya çempionu olanda Siz məni təbrik etdiniz, mənə dəstək oldunuz. Olimpiya çempionluğunda ilk olaraq Siz mənə zəng edib təbrik etdiniz. Düzdür, özü burada olmasa da, mən bizim Olimpiya çempionumuz Elnur Məmmədliyə "Çox sağ ol" demək istəyirəm. Biz bir-birimizə söz vermişdik ki, Avropa, dünya və Olimpiya çempionu olacağıq və olduq. İnşallah, bundan sonra da Los Anceles Olimpiadasına birlikdə hazırlaşıb orada da öz qələbəmi göstərəcəyəm.

Mən fəxr edirəm ki, Fransanın Paris şəhərində Olimpiya çempionu oldum, bizim bayrağımız qalxdı və himnimiz səsləndirildi. Mən bununla çox fəxr edirəm, çox sağ olun, minnətdaram Sizə.

**Prezident İlham Əliyev:** Sağ ol.

❖ ❖ ❖

Dövlətimizin başçısı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında idmançılarımızın zəhməti, istedadı, peşəkarlığı sayəsində qazandıqları qələbənin bütün xalqımıza sevinc bəxş etdiyini dedi.

Azərbaycan Prezidenti qeyd etdi ki, xüsusilə Olimpiya Oyunlarında qazanılan qələbə idmanda da, məişətdə də, həyatda da idmançının üzərinə böyük məsuliyyət qoyur. İdmançılarımızın yalnız məharətləri ilə deyil, həm də yarış zamanı layiqli davranışları ilə seçildiklərini vurğulayan dövlətimizin başçısı dedi ki, bu, onların yüksək mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyev uzun illər Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında ölkəmizin adını ucaldan veteran idmançılara minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan idmançılarına və məşqçilərinə yeni qələbələr və uğurlar arzuladı.

❖ ❖ ❖

Sonra Olimpiya çempionları, cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev Azərbaycan Prezidentinə xatirə hədiyyələri təqdim etdilər.

Daha sonra dövlətimizin başçısı XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılan yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə təltif olunan idmançılara və onların məşqçilərinə ordenləri təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Qazaxıstan Respublikası Parlamenti Senatının nümayəndə heyəti Milli Məclisdə olub

Avqustun 14-də Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Parlamenti Senatının Aparat rəhbəri Maksim Spotkayın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.









Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları VI çağırış Milli Məclisin Sədri Sahibə Qafarovanın adından səmimi salamlayan Aparat rəhbəri, Azərbaycan və qazax xalqları arasında dərin köklərə söykənən çoxəsrlik dostluq və qardaşlıq münasibətlərinə dair fikirlərini səsləndirib. İkitərəfli münasibətlərin ölkələrimiz müstəqillik əldə etdikdən sonra daha da möhkəmləndiyini deyən Fərid Hacıyev, əlaqələrimizin inkişafında dövlət başçılarının müstəsna rolunu qeyd edib, ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, aparılan danışıqların, müntəzəm görüşlərin əhəmiyyətini vurğulayıb.

44 günlük Vətən müharibəsi və keçən il həyata keçirilən uğurlu lokal antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa edilməsindən söhbət açan Fərid Hacıyev, Qazaxıstan tərəfinə Azərbaycanın ərazi bütövlüyü məsələsindəki ədalətli mövqeyinə görə təşəkkürünü bildirib. O, cari ilin mart ayında Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin işğaldan azad edilmiş Füzuli şəhərində inşa olunan qazax xalqının hədiyyəsi - Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirakını məmnuniyyətlə qeyd edib.

Görüş zamanı nümayəndə heyətinə Milli Məclisin və onun Aparatının strukturu, ölkədəki seçki sistemi, qanun yaradıcılığı prosesi, mövcud komitə və komissiyalar, partiyaların təmsilçiliyi, həmçinin parlamentin xarici əlaqələri barədə məlumat verilib. Fərid Hacıyev ölkəmizdə sentyabrın 1-də Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərə hazırlıq barədə fikirlərini bildirib.

Görüşdə qeyd olunub ki, Azərbaycan digər sahələrdə olduğu kimi, Qazaxıstan Respublikası ilə parlamentlərarası əlaqələrin inkişaf etdirilməsində də yaxından maraqlıdır. İkitərəfli əlaqələrin inkişafında müxtəlif dövrlərdə parlament sədrlərinin qarşılıqlı səfərlərinin, aparılan danışıqların rolu vurğulanıb, ölkə parlamentlərinin beynəlxalq təşkilatlardakı səmərəli əməkdaşlığından məmnuniyyət ifadə olunub. Parlament aparatları arasında əməkdaşlığın dərinləşdirilməsinin vacibliyi xüsusi qeyd olunub.

Ölkəmizə səfərə dəvətə görə təşəkkürünü bildirən Qazaxıstan Respublikası Parlamenti Senatının Aparat rəhbəri Maksim Spotkay Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. Qonaq da öz növbəsində, Milli Məclis Aparatının rəhbərini Qazaxıstana səfərə dəvət edib.

Ölkələrimiz arasında tarixi dostluq və qardaşlıq münasibətlərindən danışan qonaq, əlaqələrin inkişafında ölkə prezidentlərinin xüsusi rolunu qeyd edib, ikitərəfli münasibətlərin dərinləşməsində qanunverici orqanlar arasında əməkdaşlığın vacibliyini vurğulayıb, qarşılıqlı təcrübə mübadiləsinin və mütəmadi səfərlərin əhəmiyyətindən danışıb.

Görüşdə Milli Məclis Aparatı rəhbərinin müavinləri Yaşar Əməşov, Rüstəm Mahmudov iştirak ediblər.

❖ ❖ ❖

Qazaxıstan Parlamenti Senatının nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik, İqtisadi qanunvericilik, Sosial qanunvericilik, Beynəlxalq münasibətlər və İnformasiya resursları və texnologiyaları şöbələri ilə nümayəndə heyətində təmsil olunan müvafiq şöbələrin nümayəndələri arasında görüşlər keçirilib.

Görüşlərdə parlament şöbələrinin funksiyaları, fəaliyyət istiqamətləri, iş prinsipləri, qanunvericilik fəaliyyətində iştirakı, qanun layihələrinin hazırlanması, qəbulu və qüvvəyəminmə prosesi, həmçinin VI çağırış Milli Məclisin beynəlxalq əlaqələri və həyata keçirdiyi uğurlu parlament diplomatiyası, tətbiq olunan texnoloji yeniliklər və yaradılan elektron sistemləri barədə məlumat verilib.

Söhbət zamanı parlament aparatlarının strukturları arasında əməkdaşlığın və təcrübə mübadiləsinin inkişaf etdirilməsi, həmçinin tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, qonaqları maraqlandıran suallar cavablandırılıb.

❖ ❖ ❖

Qazaxıstan Respublikası Parlamenti Senatının Aparat rəhbəri Maksim Spotkayın başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisdə olarkən parlamentin inzibati binası ilə də tanış olub.

Parlamentin plenar iclas zalı ilə tanış olan qonaqlara Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov burada deputatlar üçün yaradılmış iş şəraiti, parlamentin plenar iclasının keçirilməsi prosedurları haqqında məlumat verib.

Sonra qonaqlar parlamentin inzibati binasının foyesində VI çağırış Milli Məclisin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə yaradılmış və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunmuş "Zəfər guşəsi" ilə tanış olublar. Bildirilib ki, həmin guşəyə müharibə dövründə canlarından keçərək şəhidlik zirvəsinə ucalan əsgər və zabitlərimizin adları həkk olunub. Qonaqlar guşədə yer alan və Vətən müharibəsində qələbə münasibətilə təsis olunmuş orden və medallarla və digər məlumatlarla tanış olublar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Qazaxıstan Parlamenti Senatının nümayəndə heyəti Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



Avqustun 14-də Qazaxıstan Respublikası Parlamenti Senatının Aparat rəhbəri Maksim Spotkayın başçılıq etdiyi nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə güllər düzüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər qoyub, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib. Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə arasında kosmik sənaye, süni zəka və kibertəhlükəsizlik sahələrində əməkdaşlıq müzakirə olunub

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanda səfərdə olan Türkiyə Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünlə görüşüb.



Nazirlikdən AZƏRTAC-a verilən məlumata əsasən, görüşdə İKT, kosmik sənaye, süni zəka və kibertəhlükəsizlik sahələrində əməkdaşlıq məsələləri müzakirə olunub. Azərbaycanda bu sahələrdə təlim proqramlarının həyata keçirilməsi və iki ölkə mütəxəssislərinin təcrübə mübadiləsinin təşkili istiqamətində tədbirlər görülməsi qərarlaşdırılıb.

# "Komando başlanğıc kursu"nun buraxılış mərasimi keçirilib

2024-cü il üçün hazırlıq planına uyğun olaraq, "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Kurs iştirakçılarına Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb. Mərasimdə çıxış edənlər Azərbaycan Ordusunda hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında bu cür kursların əhəmiyyətini vurğulayıb, kursantlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar. Sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub, hərbi qulluqçulara sertifikatlar təqdim olunub. Buraxılış mərasiminin sonunda şəxsi heyət təntənəli marşla tribuna önündən keçib.

# Azərbaycanın genişzolaqlı internet xidməti bazarında araşdırmalara başlanılıb

Son dövrlərdə kütləvi informasiya vasitələrində, bəzi internet provayderlərinin rəsmi internet səhifələrində, habelə sosial şəbəkələrdə genişzolaqlı internet xidmətləri bazarında fəaliyyət göstərən təbii inhisar subyektləri və bir sıra özəl provayderlər tərəfindən internet xidmətlərinin minimum tariflərinin yüksəldilməsinə dair xəbərlər yer alır. Məsələ ilə əlaqədar İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə də çoxsaylı vətəndaş müraciətləri daxil olur.

Dövlət Xidmətindən AZƏRTAC-a bildirilib ki, internet provayderləri tərəfindən nəzərdə tutulan dəyişikliklərdən sonra sürəti 40 mbit/s və aylıq xidmət haqqı 18 manat olan cari minimum tarifli fiber optik internet xidmətlərinin 100 mbit/s-lik sürət və aylıq xidmət haqqı 25 manat olan tariflə əvəzlənəcəyi məlum olub. Nəticə etibarilə, müştərilər (o cümlədən istehlakçı) üçün formalaşan minimum fiber optik internet xidməti tarifinin dəyəri kəskin yüksəlmiş olacaq.

Bundan əlavə, daha aşağı internet sürəti (100 mbit/s-dən aşağı) seçmək istəyən müştərilərin seçim imkanlarının məhdudlaşdırılacağı və onların alıcılıq qabiliyyəti nəzərə alınmadan yüksəksürətli internet paketlərinin yüksək qiymətə təqdim ediləcəyi müəyyən edilib.

Kütləvi informasiya vasitələrində yer alan məlumatların və Dövlət Xidmətinə daxil olan çoxsaylı vətəndaş müraciətlərinin ilkin təhlili nəticəsində internet xidmətlərinin yeni tariflərinin müvafiq bazarın əsas iştirakçıları olan təbii inhisar subyektləri və bir sıra özəl provayderlər tərəfindən kollektiv əsaslarla müəyyən edildiyi, eyni xidmətlərə (eyni sürət və paketlərə) görə eyni qiymətlərin təyin edildiyi və bu prosesin ölkədə fəaliyyət göstərən internet provayderləri tərəfindən əlaqəli bir şəkildə, uyğunlaşdırılmış hərəkətlər və ya kartel tipli münasibətlərlə həyata keçiriləcəyinin ilkin əlamətləri müşahidə olunur.

Məlumat üçün bildiririk ki, hazırda təsərrüfat subyektlərinin fəaliyyətinin əsasları cari ilin 1 iyul tarixindən qüvvəyə minən Rəqabət Məcəlləsi ilə tənzimlənir. Məcəllənin tələblərinə əsasən, rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olan və ya ola bilən üfüqi (kartel sövdələşmələri) və şaquli sazişlər, o cümlədən uyğunlaşdırılmış hərəkətlər qadağandır və bağlanıldığı andan əhəmiyyətsizdir. Bundan əlavə, rəqabəti məhdudlaşdırmaq məqsədilə təsərrüfat subyektlərinin təkbaşına və ya birgə hökmran mövqedən sui-istifadə hərəkətləri də məcəllə ilə qadağan olunur.

Genişzolaqlı internet xidmətləri bazarının sosial, iqtisadi və strateji əhəmiyyətini nəzərə alaraq, Dövlət Xidməti tərəfindən müvafiq bazarda uyğunlaşdırılmış hərəkətlərin, üfüqi və şaquli sazişlərin, kartel tipli bazar münasibətlərinin təsbit edilməsi, aşağı və yüksək inhisar qiymətlərinin tətbiqinin müəyyənləşdirilməsi və müştərilərin seçim imkanlarını məhdudlaşdırmaqla hökmran mövqe vəziyyətindən sui-istifadə hərəkətlərinin qarşısının alınması məqsədilə müvafiq bazarda Rəqabət Məcəlləsinin tələblərinin pozulması əlamətləri üzrə araşdırmalara başlanılıb.

Məsələ ilə əlaqədar olaraq Dövlət Xidməti tərəfindən bazar iştirakçılarına sorğu məktubları ünvanlanıb, bir sıra görüşlər keçirilib və onlardan müvafiq məlumatlar istənilib. Araşdırmaların nəticələrinə uyğun olaraq qanunamüvafiq tədbirlər görüləcək.

# Özbəkistan hərbi qulluqçuları PUA-ların tətbiqi taktikası kursunda iştirak etmək üçün Azərbaycanda səfərdədirlər

Azərbaycan və Özbəkistan respublikaları arasında 2024-cü il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Özbəkistan hərbi qulluqçuları müasir silahlı münaqişələrdə taktiki pilotsuz uçuş aparatlarının (PUA) istifadəsinin planlaşdırılması və tətbiqi taktikası kursunda iştirak etmək məqsədilə ölkəmizə səfər ediblər.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, kursun ilk günündə özbəkistanlı qonaqlara Hərbi Hava Qüvvələrinin tarixi və fəaliyyəti haqqında, həmçinin PUA-ların ənənəvi döyüşlərdə tətbiqi, döyüş uçuşunun təşkili, Azərbaycan Ordusunda mini və mikro PUA-ların tətbiqi mövzularında brifinq təqdim olunub.

Nümayəndə heyətinə Azərbaycan Ordusunun arsenalında yer alan bəzi PUA-lar əyani nümayiş etdirilib, qurğuların taktiki-texniki xüsusiyyətləri barədə məlumat verilib.

# 1 sentyabr Milli Məclisə seçkilər günüdür

## Mərkəzi Seçki Komissiyasında ATƏT/DTİHB-nin seçki müşahidə missiyasının rəhbəri ilə görüş keçirilib

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov avqustun 14-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar seçki müşahidə missiyasının rəhbəri Ditmir Buşatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, M.Pənahov missiyanın görüş üçün təşəbbüsünü yüksək qiymətləndirib.

D.Buşati Milli Məclisə seçkilərdə proseslərin gedişi ilə maraqlanıb.

MSK sədri seçkilərin yüksək səviyyədə hazırlanıb, azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində görülən işlər, ölkə vətəndaşlarının seçmək və seçilmək hüquqlarının daha səmərəli realizə olunması üçün Komissiyanın fəaliyyəti və reallaşdırılan çoxsaylı müxtəlif səpkili layihələrdən danışıb, bütün addımların qanunvericiliyin tələblərinə uyğun və tam şəffaflıq şəraitində atıldığını diqqətə çatdırıb. Qonaqların suallarını cavablandıran M.Pənahov həmçinin ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçiriləcək Milli Məclisə seçkilərə hazırlıqların və nəzərdə tutulan genişmiqyaslı layihələrin müvəffəqiyyətlə davam etdiyini vurğulayıb.

Görüş zamanı Milli Məclisə seçkilərlə bağlı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi və müzakirələr aparılıb.

## Bakı Apellyasiya Məhkəməsində ATƏT/DTİHB-nin Seçki Müşahidə Missiyasının nümayəndəsi ilə görüş



Milli Məclisə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərlə bağlı ölkəmizdə səfərdə olan ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının nümayəndəsi - həmin qurumun hüquqi təhlilçisi Branislav Soloviç ilə Bakı Apellyasiya Məhkəməsində görüş keçirilib.

Bakı Apellyasiya Məhkəməsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə seçki mübahisələrinin məhkəmə qaydasında həlli, seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsinə dair işlər üzrə müxtəlif mövzular ətrafında müzakirələr aparılıb. Həmçinin qonağı maraqlandıran məsələlərə aydınlıq gətirilib.

## Naxçıvan Muxtar Respublikasında 6 seçki dairəsi üzrə 1900-ə yaxın əməkdaş treninqlərə cəlb edilib

Avqustun 12-dən etibarən Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 1 saylı Şərur - Sədərək, 2 saylı Şərur - Kəngərli, 3 saylı Babək - Şahbuz -Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək - Naxçıvan - Culfa və 6 saylı Ordubad - Culfa seçki dairələrində məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri üçün treninqlərə start verilib. Təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığının və peşəkarlıq səviyyəsinin artırılmasıdır.





AZƏRTAC xəbər verir ki, treninqlərdə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki prosesində müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə prosesinə dair praktiki tapşırıqlar və digər məsələlərlə bağlı ətraflı məlumatlar verilir. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası təqdim edilib. Diskussiya şəklində təşkil olunan treninqlərdə məntəqə seçki komissiyalarının üzvlərini maraqlandıran suallar cavablandırılır.

1 saylı Şərur - Sədərək seçki dairəsinin sədri Niyaz Əsgərovun verdiyi məlumata görə, avqustun 16-dək keçiriləcək treninqlərdə dairə üzrə 50 məntəqədən 300 əməkdaş iştirak edəcək. Treninqlərin gedişini xarici müşahidəçilər də izləyirlər. 1 saylı Şərur - Sədərək seçki dairəsi üzrə 47 min 791 seçici qeydə alınıb ki, onlardan 590-nı ilk dəfə səs verəcək. Ən yaşlı seçicilər Şərur rayonunun Yengicə kənd sakini, 1925-ci il təvəllüdlü Sura Musayeva və Alışar kəndindən olan Tərlan İbrahimovadır. Dairənin 12, 15, 17, 21 və 36 saylı məntəqələrində veb-kameraların quraşdırılması nəzərdə tutulub. Dairə üzrə növbədənkənar parlament seçkiləri ilə əlaqədar deputatlığa 6 namizəd qeydə alınıb.

3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsinin sədri Taməddin Hüseynov bildirib ki, dairə əməkdaşları Nazim Piriyev və Nicad Fətullayev tərəfindən 1 gün ərzində iki dəfə olmaqla 5 gün keçiriləcək treninqlərdə 60 məntəqədən 360 əməkdaş iştirak edəcək. Dairə üzrə 46 min 174 seçici qeydə alınıb ki, onlardan 701-i ilk dəfə səs verəcək, 1, 2, 3, 20, 23, 37 və 40 saylı məntəqələrdə veb-kameraların quraşdırılması nəzərdə tutulub. Dairədə deputatlığa 8 namizəd qeydə alınıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 1 saylı Şərur - Sədərək seçki dairəsi üzrə 300, 2 saylı Şərur - Kəngərli seçki dairəsindən 342, 3 saylı Babək - Şahbuz-Kəngərli seçki dairəsi üzrə 360, 4 saylı Naxçıvan şəhər seçki dairəsindən 252, 5 saylı Babək - Naxçıvan - Culfa seçki dairəsi üzrə 267, 6 saylı Ordubad - Culfa seçki dairəsindən 378 olmaqla, ümumilikdə 1899 əməkdaş treninqlərdə iştirak edəcək.

## 43 saylı Sumqayıt üçüncü seçki dairəsində treninqlər uğurla başa çatıb

Sentyabrın 1-də keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərə hazırlıqla əlaqədar 43 saylı Sumqayıt üçüncü seçki dairəsində keçirilən treninqlər uğurla başa çatıb.



AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının (MSK) keçirdiyi treninqlərə məntəqə seçki komissiyaların sədrləri, katibləri və üzvləri olmaqla ümumilikdə 216 nəfər cəlb edilib. Gündə iki sessiya təşkil edilməklə keçirilən təlimlərdə seçki günü məntəqələrdə yarana biləcək məsələlərə aydınlıq gətirilib.

Təlimləri aparan Aygün Zülfüqarlı seçki günü məntəqə seçki komissiyaları üzvlərinin səsvermə başlayandan səslərin hesablanması prosesinədək hər bir üzvün rolu və vəzifələri haqqında müfəssəl məlumat verib. Dialoq formatında keçən treninqlərdə seçki gününə dair bir çox vacib məsələlərə toxunulub, ortaya çıxan suallar cavablandırılıb.

## Cənub bölgəsində məntəqə seçki komissiyaları üzvlərinin bilik, bacarıq və vərdişləri təkmilləşdirilir

Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar ölkəmizin cənub bölgəsində maarifləndirici treninqlər davam edir.



AZƏRTAC xəbər verir ki, 79 saylı Astara, 71 saylı Cəlilabad, 69 saylı Biləsuvar, 75 saylı Yardımlı-Masallı seçki dairələrində şəhər, qəsəbə və kənd məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər təşkil olunub.

Təlimlər gün ərzində iki dəfə olmaqla məntəqə seçki komissiyası üzvlərinin iştirakı ilə keçirilir. Treninqlərdə səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin vəzifələri, seçki günü prosedurları və müstəsna hallar, səsvermə məntəqəsinin açılması, seçki qutularının hazırlanması, səslərin hesablanması, seçki bülletenlərinin təsnifatı və yekun protokolun doldurulması və digər məsələlər barədə məlumat verilib.

Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunub.

## Beyləqandakı treninqlərdə məntəqə seçki komissiyalarının 354 üzvünün iştirakı nəzərdə tutulur

Sentyabrın 1-də ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində aşağı seçki komissiyalarının üzvləri üçün təşkil olunan treninqlər Beyləqan rayonunda uğurla davam edir.





83 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının sədri Zakir Vəlişov AZƏRTAC-a bildirib ki, treninqlərdə seçki dairəsinin 59 məntəqəsi üzrə ümumilikdə 354 aşağı seçki komissiyası üzvünün iştirakı nəzərdə tutulur. Məşğələlər Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi "Trenerlər üçün treninq" kursunda iştirak etmiş Gülnar Cəfərli və Əbülfət Əliyev tərəfindən aparılır. Beş gün davam edəcək treninqlər gün ərzində iki dəfə olmaqla, hər sessiyada 36 nəfər məntəqə seçki komissiyası üzvünün iştirakı ilə keçirilir.

Treninq zamanı seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə prosesi, səslərin hesablanması, protokolun doldurulması və sair mövzularında təqdimatlar edilir, müzakirələr aparılır və iştirakçıların sualları cavablandırılır. Hər bir iştirakçıya təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunur.

Treninqlər bölgədə fəaliyyət göstərən digər seçki dairələrində də keçirilir.

## Qırğızıstanda TDT-yə üzv ölkələr üçün Beynəlxalq Könüllülər Məktəbi təşkil olunub

Qırğızıstan Respublikasının Çuy vilayətində Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrdən olan gənc könüllülər üçün Beynəlxalq Məktəb təşkil olunub.



AZƏRTAC-ın Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyinin Mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, tədbirdə Qazaxıstan, Qırğızıstan, Azərbaycan, Türkmənistan və Özbəkistandan təxminən 100-ə qədər könüllü iştirak edir.

Tədbirə könüllülər təşkilatlarının nümayəndələri, dövlət qurumları və Türk Dövlətləri Təşkilatına üzv ölkələrin beynəlxalq və qeyri-hökumət təşkilatlarının gəncləri də cəlb olunub. Məktəb beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi və könüllülük sahəsində qabaqcıl təcrübələrin mübadiləsi üçün böyük imkanlar yaradır.

## *Kubanıçbek ÖMÜRALIYEV:* "TDT, sadəcə, türk bölgələrində deyil, dünya miqyasında sülh, sabitlik və rifahın təşviqinə sadiqdir"



Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev Macarıstanda keçirilən Doqquzuncu Böyük Hun-Türk Qurultayında iştirak edib. Bu barədə AZƏRTAC-a TDT-dən məlumat verilib.

Qeyd edilib ki, "Macar-Turan" Beynəlxalq Fondunun sədri Andraş Biro tərəfindən təşkil edilən qurultayda Macarıstan rəsmiləri, parlament üzvləri, TDT-yə üzv və müşahidəçi dövlətlərin Budapeştdə akkreditə olunmuş diplomatik nümayəndəliklərinin rəhbərləri, türkdilli ölkələrin, eləcə də türk əməkdaşlıq təşkilatlarının Macarıstan üzrə sədrləri və digər yüksəkvəzifəli şəxsləri iştirak ediblər.

Çıxışında türk xalqlarının böyük irsinin tanıdılması baxımından böyük əhəmiyyət kəsb edən bu qurultayın təşkilatçılarına təşəkkürünü ifadə edən TDT-nin Baş katibi mərasimdə dünyanın fərqli bölgələrindən türkdilli xalqların 27-dən çox nümayəndəsinin iştirak etdiyini deyib.

Bildirilib ki, bu tədbir beynəlxalq təhlükəsizlik problemləri, münaqişələr, siyasi, sosial-iqtisadi böhranların aradan qaldırılması üçün həmrəyliyin və birliyin gücləndirilməsinin zəruriliyini bir daha vurğulayır. TDT-də bu prinsiplərə əsaslanaraq sadəcə türk bölgələrində deyil, dünya miqyasında sülh, sabitlik və rifahın təşviqinə sadiqdir: "Bu tədbir, eyni zamanda tarixi ənənələrin qorunmasının bayramıdır və qədim türk köçəri mədəniyyətlərinin canlandırılmasına xidmət edir, böyük əcdadlara hörmətin əlamətidir. Bu baxımdan həmrəylik, qarşılıqlı hörmət və əməkdaşlıq əbədi dəyərlərin qorunması üçün olduqca vacibdir".

Baş katib Macarıstanın türk dünyasının bir hissəsi kimi ölkələrimiz arasında əməkdaşlıq və həmrəyliyin gücləndirilməsinə böyük töhfə verdiyini, eləcə də TDT-də müşahidəçi dövlət olaraq strateji əhəmiyyətə malik olduğunu qeyd etdi.

Sonra Kubanıçbek Ömüralıyev qurultay çərçivəsində təşkil olunan Türk Dünyası Mədəniyyət Forumunda iştirak edib.

Qurultayın proqramına genişmiqyaslı arxeoloji və antropoloji sərgi, süvari qoşunlarının keçidi, türkdilli ölkələrinin incəsənət nümayəndələrinin ifasında musiqili və digər mədəni proqramlar, eləcə də idman tədbirləri daxil olub.

# — 1 sentyabr Milli Məclisə seçkilər günüdür —

## 101 saylı Samux-Şəmkir seçki dairəsində 355 nəfər ilk dəfə səs verəcək

Milli Məclisə sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilər yaxınlaşdıqca 101 saylı Samux-Şəmkir seçki dairəsini əhatə edən məntəqələrdə hazırlıq işləri daha da sürətlənir. Biz görülən işlərlə tanış olmaq üçün dairədə olduq və dairənin sədri Bayram Qasımovla görüşdük.





Qeyd edək ki, biz orada olarkən seçki məntəqələrinin üzvləri üçün maarifləndirici treninq keçirilirdi. Treninqi Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi təlim kursunda iştirak etmiş şəxslər aparırdılar. İştirakçılara MSK tərəfindən tərtib edilmiş xüsusi proqram və saytların köməyi ilə məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, eləcə də seçki günü prosesləri və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq və seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması, yekun protokollarının doldurulması və digər məsələlər barədə metodiki məlumatlar verilirdi.

B.Qasımovla söhbət zamanı öyrəndik ki, seçkilərin ədalətli və şəffaf keçirilməsi üçün dairənin məntəqələrində hər cür şərait yaradılıb. 56 məntəqənin 9-da veb-kamera quraşdırılıb. Dairə üzrə indiyədək 397 müşahidəçi qeydə alınmışdır. 3 məntəqədə fiziki aktivliyi olmayan seçicilər üçün panduslar quraşdırılmış, xəstələrin öz evlərində səs vermələri üçün xüsusi qruplar təşkil edilmiş və səyyar seçki qutuları hazırlanmışdır. Bunun üçün ərizə ilə müraciət edən seçicilərin siyahısı da tərtib edilmişdir. Həmçinin ilk dəfə səs verən gənclərin, eləcə də yaşı 100-ü keçmiş ahıl seçicilərin siyahısı tərtib olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, dairəni əhatə edən məntəqələrdə 355 nəfər ilk dəfə, 2 nəfər isə yaşı 100-ü keçmiş seçici səs verəcək.

Məlumdur ki, hazırda deputatlığa namizədlər təbliğat və təşviqatla məşğuldurlar. Bu dairədə də deputatlığa namizədlərlə seçicilərin görüşü üçün yerlər ayrılmışdır. Dairənin Samux şəhərində yerləşən 2 saylı seçki məntəqəsində olduq. Məntəqədə hazırlıq işləri yüksək səviyyədə təşkil olunmuşdur. Seçici siyahıları əhalinin sıx olduğu yerdə asılmışdır. Sədr Əminə Cəfərova bildirdi ki, məntəqədə veb-kamera quraşdırılmışdır: "Ümumiyyətlə, məntəqəni əhatə edən ərazilərdə sakinlər arasında böyük canlanma var. Onlar növbədənkənar parlament seçkilərində iştirak etməyi özlərinin vətəndaşlıq borcu hesab edirlər. Məntəqədə 3 nəfər ilk dəfə səs verən, 2 nəfər yaşı 80-ni keçmiş seçici qeydiyyata alınmışdır". 90 yaşlı Ayaz Namazov məntəqədə idi. Dedi ki, seçki günü məntəqəyə gəlib istədiyi namizədə səs verəcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## 108 saylı Ağstafa seçki dairəsi üzrə treninqlər davam edir

Sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar 108 saylı Ağstafa seçki dairəsinin dairə seçki komissiyasında da məntəqə seçki komissiyalarının üzvləri üçün treninq təşkil edilib.




AZƏRTAC xəbər verir ki, bir neçə gün davam edəcək təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığının və peşəkarlığının artırılmasıdır. Treninqlərdə 108 saylı Ağstafa seçki dairəsi üzrə ümumilikdə 47 məntəqədən 144 nəfərin iştirakı nəzərdə tutulub. Məşğələləri Mərkəzi Seçki Komissiyasının (MSK) təlim kursunda iştirak etmiş 108 saylı Ağstafa seçki dairəsi dairə seçki komissiyasının əməkdaşları aparırlar.

Məntəqə seçki komissiyasının üzvləri seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması, ümumiyyətlə, bütün seçki günü prosedurları barədə ətraflı məlumatlandırılıb. Hər bir iştirakçıya təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və digər zəruri metodiki vəsait, əyani materiallar verilib. Treninq zamanı iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, 108 saylı Ağstafa seçki dairəsi üzrə 46 min 792 seçici qeydə alınıb.

## Medianın İnkişafı Agentliyində ATƏT-in DTİHB-nin Seçki Müşahidə Missiyasının nümayəndələri ilə görüş



Medianın İnkişafı Agentliyində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşati və media analitiki Kira Kalinina ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyindən bildirilib. Görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda media landşaftı, bu sahədə həyata keçirilən islahatların gedişatı, Agentliyin əsas fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib, qonaqların suallarını cavablandırıb. Görüş zamanı həmçinin 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə medianin fəaliyyəti ilə əlaqədar müzakirələr aparılıb.

## Şəkidə aşağı seçki komissiyalarının üzvləri seçki günü prosedurları barədə maarifləndirilir

Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərə hazırlıqla əlaqədar 114 saylı Şəki şəhər seçki dairəsində aşağı seçki komissiyalarının üzvləri üçün səsvermə günü prosedurları ilə bağlı maarifləndirici treninqlər davam edir.



AZƏRTAC xəbər verir ki, avqustun 12-də başlayan treninqlərə dairənin tərkibində olan 44 seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri olmaqla ümumilikdə 276 nəfər cəlb edilib. Treninqlərin ilk iki günündə keçirilən məşğələlərdə 24 seçki məntəqəsi üzrə 144 komissiya üzvü iştirak edib. Məşğələləri Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən təşkil olunan təlim kursunda iştirak etmiş Tehran Əzizov və Elnur Mustafayev aparırlar.

Təlim prosesində iştirakçılara MSK tərəfindən tərtib edilmiş xüsusi proqram və slaydların köməyi ilə məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, seçki günü prosesləri və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması, yekun protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumatlar verilib. Treninqlərdə, həmçinin hər bir iştirakçıya "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və digər sənəd nümunələri təqdim edilib.

Dairə seçki komissiyasının sədri Kamran Rəsulovun verdiyi məlumata görə, bu dairə üzrə Milli Məclisə yeganə mandat uğrunda 8 namizəd mübarizə aparacaq. Onlardan üçü müxtəlif siyasi partiyaları təmsil edir. Beş nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. Dairə üzrə indiyədək 362 nəfər yerli müşahidəçi qeydiyyatdan keçib.

## 12 saylı Xəzər birinci seçki dairəsi üzrə seçki komissiyalarının üzvləri üçün də treninqlər başlanılıb

Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar avqustun 14-də 12 saylı Xəzər birinci seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlərə başlanılıb. Bu günədək keçirilən təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığını və peşəkarlığını artırmaqdır.

AZƏRTAC xəbər verir ki, treninqlərdə 37 məntəqədən 150-yə yaxın şəxsin iştirakı nəzərdə tutulub. Məşğələləri Mərkəzi Seçki Komissiyasının (MSK) təlim kursunda iştirak etmiş İlham Qəmbərov aparır.

MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə otağının təşkil edilməsi qaydası, seçki günü müşahidəçilərin hüquqları, səsvermə günü məntəqənin açılması, səsvermə ilə bağlı məlumatların verilməsi saatları, səsvermədə iştirak edən vətəndaşların barmağının mürəkkəblə işarələnməsi, hansı halda seçicinin səsvermə hüququndan istifadə edə bilməyəcəyi, səslərin hesablanması və digər məsələlər ilə bağlı məlumatlar verilir. Təlim iştirakçılarına bununla bağlı "Yaddaş kitabçası" təqdim edilir.



Qeyd edək ki, treninqlər 13 saylı Xəzər ikinci və 14 saylı Xəzər-Pirallahı seçki dairələrində də təşkil olunur.

Dairə seçki komissiyasının sədri Mütəllim Balaqardaşov AZƏRTAC-a açıqlamasında seçkilərə hazırlıq işlərinin uğurla davam etdiyini, məntəqələrdə səsvermənin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şəraitin yaradıldığını bildirib. Deyib ki, məntəqələr seçki kabinələri, təşviqat, məlumat, seçici siyahısı lövhələri, generatorlar, elektrik fənərləri, daşınmaz və daşınan seçki qutuları, qeydiyyat dəftərləri, Seçki Məcəlləsi, parlament seçkiləri ilə bağlı təlimatlarla təmin olunub. Seçki məntəqələrinin yeddisində veb-kamera quraşdırılıb. Məntəqələrdə sağlamlıq imkanları məhdud seçicilər üçün panduslar quraşdırılıb.

"Hazırda dairədəki seçki məntəqələrinin sayı 37, seçicilərin sayı isə 48 mindən çoxdur. Dairə üzrə seçicilərin 226 nəfəri ilk dəfə səs verəcək", - deyə M. Balaqardaşov qeyd edib.

## Qərb bölgəsində məntəqə seçki komissiyalarının üzvləri treninqlərə cəlb olunublar

Sentyabrın 1-də keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərə hazırlıq qərb bölgəsində yerləşən dairələrdə də davam edir.

AZƏRTAC xəbər verir ki, 38 saylı Gəncə birinci, 39 saylı Gəncə ikinci, 40 saylı Gəncə üçüncü və 41 saylı Gəncə-Samux-Goranboy seçki dairələrində Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi treninqlərə məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri cəlb olunublar.

Treninqlərdə seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, səsvermə prosesi, səslərin hesablanması, protokolun doldurulması və sair mövzularda təqdimatlar edilir, müzakirələr aparılır və suallar cavablandırılır.

## 31 saylı Suraxanı seçki dairəsinin dairə seçki komissiyasında treninqlər keçirilib

Sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə seçkilərlə əlaqədar avqustun 14-də 31 saylı Suraxanı seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlər təşkil edilib.



AZƏRTAC xəbər verir ki, treninqdə çıxış edən dairə seçki komissiyasının sədri İlham Bayramov Milli Məclisə seçkilərdə şəffaflığın və aşkarlığın təmin olunması üçün məntəqə seçki komissiyalarında zəruri şəraitin yaradıldığını və məntəqələrin zəruri avadanlıqlarla təchiz olunduğunu söyləyib.

O deyib ki, təlimlərin keçirilməsində məqsəd seçki komissiyaları üzvlərinin məlumatlılığını və peşəkarlığını artırmaqdır. MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə tədbir iştirakçılarına səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rolu və vəzifələri, səsvermə otağının təşkil edilməsi qaydası, seçki günü müşahidəçilərin hüquqları, məntəqənin açılması, səsvermə ilə bağlı məlumatların verilməsi saatları, səsvermədə iştirak edən vətəndaşların barmağının mürəkkəblə işarələnməsi, hansı halda seçicinin səsvermə hüququndan istifadə edə bilməyəcəyi, səslərin hesablanması və s. ilə bağlı ətraflı məlumat təqdim olunub.

İ.Bayramov seçkilərə hazırlıq işlərinin uğurla davam etdiyini, məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün zəruri şəraitin yaradıldığını deyib. Bildirib ki, sağlamlıq imkanları məhdud seçicilər üçün 14 məntəqədə panduslar quraşdırılıb. İ.Bayramov qeyd edib ki, Milli Məclisə seçkilərdə dairə üzrə namizədlərin sayı 9 nəfərdir. Onlardan 5-nin siyasi partiya təmsilçisi, 4-ü isə bitərəfdir. Həmçinin diqqətə çatdırılıb ki, dairədəki seçki məntəqələrinin sayı 38, seçicilərin sayı isə 44 min 860 nəfərdir. Dairə üzrə 489 nəfər isə ilk dəfə səs verəcək. Seçicilərdən 658 nəfərin yaşı 80-100 aralığındadır.

Komissiya sədri həmçinin dairə üzrə 270 müşahidəçinin qeydiyyatdan keçdiyini, məşvərətçilərin sayının isə 77 nəfər olduğunu qeyd edib.

## Cəbrayıl şəhərində və Soltanlı kəndində seçki məntəqəsi fəaliyyət göstərəcək

120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi üzrə aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirici treninqlər davam edir. Avqustun 12-19-da ümumilikdə 14 treninq sessiyasının keçirilməsi nəzərdə tutulub.



Dairə seçki komissiyasından AZƏRTAC-a bildirilib ki, treninqlər dairənin tərkibinə daxil olan 82 seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri cəlb edilməklə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış xüsusi proqram əsasında aparılır. Məşğələlər zamanı iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir, komissiya üzvlərinin sualları cavablandırılır.

Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunur.

Qeyd edək ki, sözügedən dairə üzrə 82 seçki məntəqəsi mövcuddur. İki seçki məntəqəsi işğaldan azad olunan ərazilərdə - Cəbrayıl şəhərində və Soltanlı kəndində yerləşir. Dairə üzrə ümumilikdə 54 min 486 seçici qeydə alınıb ki, onlardan 570 nəfəri ilk dəfə səs vermək hüququ olanlardır. İşğaldan azad olunan ərazidə yerləşən 80 və 81 saylı seçki məntəqələri üzrə isə 1259 nəfər seçici qeydə alınıb ki, onlar da həmin ərazidə çalışan işçilərdir.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan birləşdirici gücə çevrilir

### Neokolonializmə qarşı qlobal mübarizənin mərkəzi olan ölkəmiz yeni təşəbbüslər irəli sürür

Azərbaycan neokolonializmlə mübarizəyə qətiyyətlə öndərlik edir. Fransa müstəmləkəsində olan ölkələrin nümayəndələri Bakı Təşəbbüs Qrupu ətrafında birləşərək azadlıq səslərini daha gur şəkildə dünyaya çatdırırlar.



Xüsusilə qeyd edək ki, Azərbaycanın suverenliyini bərpa etməsi, Qarabağda separatizmə son qoyması müstəmləkədən qurtulmaq istəyən xalqlar üçün də böyük ümidə çevrildi. Eyni zamanda ölkəmizin Fransa kolonializmini davamlı ifşa etməsi sayəsində azadlıq istəkləri qanla boğulan həmin xalqların tək olmadıqlarını, ədalətli mübarizələrində Azərbaycanın timsalında qətiyyətli himayədarlarının olduğunu gördülər.

Ötən ay Şuşada keçirilən 2-ci Qlobal Media Forumunda Prezident İlham Əliyevin səsləndirdiyi "Biz kolonializmdən əziyyət çəkən bütün xalqları dəstəkləməyə davam edəcəyik", bəyanatı isə göstərdi ki, Azərbaycan bundan sonra da Fransa zülmü altında əzilən milyonlarla insana dəstək olacaq.

#### Beynəlxalq səviyyədə ifşa

Bəli, Azərbaycan Fransanın müstəmləkə siyasətini beynəlxalq səviyyədə ifşa edir.

Bu məqsədlə ölkəmizin sədrliyi dövründə Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən Bakı Təşəbbüs Qrupu (BTQ) yaradılıb.

Artıq bir ildən çoxdur ki, qrup müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. BTQ tərəfindən artıq 15-dək beynəlxalq konfrans təşkil edilib. Onlardan 4-ü BMT-nin Nyu York, Cenevrə və Vyanadakı qərargahlarında, biri İstanbulda, digərləri isə Bakıda keçirilib.

Bu baxımdan ötən ayın 17-də Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və BTQ-nin dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda Birinci Qurultayın keçirilməsi xüsusi əhəmiyyət kəsb etdi.

Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Baş katibi Jan-Jakob Bisep vurğulayıb ki, Fransa koloniyalarına qarşı cinayətlər törədən dövlətdir: "Məqsədimiz dünyanı Fransaya təsir göstərmək üçün səfərbər etməkdir".

Qurultayda bildirilib ki, Yeni Kaledoniyada baş verən son iğtişaşlar zamanı Fransa polisi tərəfindən müstəqillik hərəkatlarının üzvləri qanunsuz həbs olunublar. Onlarla terrorçu kimi davranılıb və gizli şəkildə Parisə aparılaraq müxtəlif işgəncələr verilib. BTQ siyasi məhbusların ailələrinə və onları müdafiə edən vəkillərə yardım göstərəcəyini bəyan edib.

BTQ Fransa koloniyalarında yaşayan gənclərə Azərbaycanın ali təhsil müəssisələrində təhsil almaq imkanı verən tələbə-təhsil təqaüdü də elan edib. Bu ildən başlayaraq həmin ərazilərdən olan gənclər bundan yararlana bilərlər.

#### Bakıda yaranan beynəlxalq platforma

Bakıda keçirilən sözügedən qurultayda ən mühüm hadisələrdən biri Fransa koloniyalarında müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatların rəhbər şəxsləri tərəfindən Fransa Koloniyalarının Beynəlxalq Azadlıq Cəbhəsinin yaradılmasıdır. Bununla bağlı yekun Bəyannamədə Fransa kolonializminin irqçi və repressiv siyasəti pislənilib, bu xüsusda Yeni Kaledoniya və digər müstəmləkə ərazilərində Fransa hökuməti tərəfindən həyata keçirilən cinayətlər kəskin qınanılıb.

Beynəlxalq Azadlıq Cəbhəsinin təsis olunması Fransa müstəmləkəçiliyinə qarşı mərkəzləşdirilmiş platformanın, vahid çətirin yaradılması deməkdir. Qurultay iştirakçıları müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanmağa, habelə Fransa kolonializminə qalib gələrək müstəqillik əldə etmək yolunda fəaliyyətlərinin əlaqələndirilməsinə qərar veriblər.

Göründüyü kimi, Azərbaycanın dekolonizasiya prosesinə ardıcıl mühüm töhfələr verməsi nəticəsində bu gün artıq koloniya ölkələri BTQ-də səylərini birləşdirərək müstəqillikləri uğrunda beynəlxalq səviyyədə mütəşəkkil mübarizə aparmağa başlayıblar.

#### Olimpiya Oyunları Fransanın çirkin simasını bir daha nümayiş etdirdi

Bir sözlə, Fransa müstəmləkəsindəki ölkələr bu platforma çərçivəsində pozulan fundamental hüquqlarının bərpası üçün aktiv fəaliyyət aparırlar.

BTQ-nin Olimpiya Oyunları prinsiplərinin "Paris-2024"də pozulmasına dair bəyanatı da bu qəbildəndir. Bəyanatda xüsusi vurğulanırdı ki, Fransa prezidenti Emmanuel Makron və onun hökuməti "Paris-2024" Olimpiya Oyunlarını "sülh və ümid anı" kimi təqdim etsə də, Fransanın kolonial və neokolonial siyasəti bunun əksini deyir.

Bəyanatda Olimpiadanın ruhuna tamamilə zidd olan bir sıra hallar diqqətə çatdırılır və sadalananlar nəzərə alınaraq, ritorik və sadə suallar da verilir: "XXI əsrdə "sülh və ümid anı" olan Olimpiya Oyunları xalqları özünə tabe edən bir ölkədə keçirilə bilərmi?

Olimpiya Oyunlarına evsahibliyi edən ölkə Kanakidə azadlığa qoyulan məhdudiyyətləri aradan qaldıra, həmçinin siyasi məhbusları azad edə bilməzdimi?"

XXXIII Yay Olimpiya Oyunları Fransanın çirkin simasını bir daha aydın şəkildə ortaya qoydu. Azərbaycanla düşmənçilik aparan müstəmləkəçi ölkə Olimpiadanın açılış mərasimində də ölkəmizə qarşı riyakarlığını gizlədə bilmədi. Həmin zaman "France 2" telekanalı Azərbaycana qarşı qərəzli ifadələr işlətdi. Amma həm siyasi formada, həm də əldə etdiyimiz idman uğurları ilə Makron hakimiyyətinin layiqli cavabı verildi.

Göründüyü kimi, Paris hər nə qədər uğursuz cəhdlərlə qarşısını almağa çalışsa da, Azərbaycan artıq Fransa müstəmləkəçiliyinə qarşı qlobal mübarizə mərkəzinə çevrilib. Bakı Təşəbbüs Qrupu vasitəsilə əsarətdəki xalqların səsi dünyaya çatdırılır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Qarabağ və Şərqi Zəngəzurda həyat qaynayır

### İşğaldan azad olunmuş ərazilərə sürətli qayıdış iqtisadi yüksəlişin göstəricisidir

"Bu gün hər bir Azərbaycan vətəndaşı qürurludur, torpaqlarımızın işğaldan azad olunması, erməni faşistləri üzərində qazanılan tarixi qələbələrimiz ilə fəxr edir. Təəssüf ki, Azərbaycan torpaqları 30 ildən çox erməni təcavüzkarlarının işğalına məruz qalıb, şəhər və kəndlərimiz viran edilib, dini, tarixi və mədəni abidələrimiz yer üzərindən silinib. Vandalizm aktlarına təəssüf ki, dünya vaxtında qiymətini vermədi, Azərbaycanın haqlı səsi eşidilmədi və ermənilər daha da harınladılar".



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat bildirib ki, 44 günlük müharibə və birgünlük antiterror tədbirləri nəticəsində erməni silahlıları tamamilə məhv edilərək separatçıların ayağı Qarabağ torpaqlarından kəsilib. Bu gün həmin ərazilərdə möhtəşəm tikinti-quruculuq işləri gedir. Bütün imkanlar həmin ərazilərin bərpa olunmasına, yeni infrastrukturun salınmasına yönəlib. "Dünya görür ki, Azərbaycan sülh yolundadır, qurur, tikir və insanları yaşadır. Artıq həmin ərazilərə köç başlayıb. Zəngilana, Laçına, Şuşaya, Füzuliyə, Xocalıya, Talış kəndinə insanların köçməsi və məskunlaşması böyük sevinc hissi yaşadır. Həmin insanlar uzun müddət ata-baba yurdlarının həsrəti ilə yaşayıblar. İndi onların Qarabağa qayıtması, sakinlər üçün lazımi şəraitin yaradılması dövlətin qüdrətindən, ölkə rəhbərinin insanlara göstərdiyi qayğıdan, diqqətdən xəbər verir", - deyə o əlavə edib.

Komitə sədri qeyd edib ki, həmin ərazilərin bərpasına ayrılan milyardlarla manat vəsait insanların xoşbəxt gələcəyi, firəvan yaşaması üçün vacibdir. Şuşanın dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrilməsi, orada bir çox beynəlxalq tədbirlərin baş tutması bəşəriyyətə, həm də təcavüzkar Ermənistana mesajdır. Bu, o deməkdir ki, Azərbaycan xalqı mübarizdir, öz torpaqlarını azad etmək uğrunda həmişə mübarizəyə hazırdır.

İşğaldan azad edilmiş torpaqlarda görülən işləri Azərbaycanın iqtisadi qüdrətinin nəticəsi kimi dəyərləndirən deputat bildirib ki, əgər belə olmasaydı, bu qədər layihələr həyata keçirilə bilməzdi: "Ölkə başçısının rəhbərliyi ilə iqtisadiyyatımız sürətlə inkişaf edir. İxrac potensialımız artır, yeni istehsal sahələri meydana gəlir. Bunlar da iqtisadiyyata öz töhfələrini verir. Bu gün Qarabağa və Şərqi Zəngəzura qayıdış həm də onu göstərir ki, bu torpaqlarda həyat tezliklə canlanacaq, ərazilər minalardan tam təmizlənərək əkin dövriyyəsinə veriləcək və insanların rahatlığına, iqtisadiyyatın yüksəlişinə xidmət edəcək. Bütün bunlar Azərbaycanın qələbəsidir".

T.Rzayev deyib ki, Azərbaycanın nailiyyətləri, uğurları, beynəlxalq aləmdə tanınması, söz sahibi olması ölkəmizin gələcəyi üçün yeni uğurlu yollar açır. Bu yollardan biri də Şərqi Zəngəzurdan, Qarabağdan keçir. Dünyaya bir daha göstəririk ki, Azərbaycan inkişafdadır və bundan sonra da qüdrətli dövlət kimi haqlı, ədalətli mübarizəsini davam etdirəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "İşğalçı" konstitusiya

### Ermənistan sülh prosesində səmimiliyini göstərmək üçün əsas qanununa dəyişiklik etməlidir

Azərbaycanın ərazi bütövlüyünü təmin etməsindən sonra Ermənistanla sülh sazişinin imzalanması üçün mühüm tarixi imkan yaranıb. Bu tarixi şansı düzgün dəyərləndirən rəsmi Bakı regionda möhkəm sülhün bərqərar edilməsi üçün prosesin davam etdirilməsində maraqlıdır.



#### İrəvan manipulyasiyalarla məşğuldur

Lakin eyni fikirləri Ermənistan barədə söyləmək mümkün deyil. Ermənistanın baş naziri və bu ölkənin digər rəsmiləri sülh sazişinin vacibliyindən, iki ölkə arasında münasibətlərin normallaşdırılmasından dəm vursalar da, fərqli davranış ortaya qoyurlar. Başqa cür desək, Ermənistan tərəfi sülh prosesinin irəlilədilməsi üçün yaranmış şansdan bəhrələnmək əvəzinə, müxtəlif manipulyasiyalarla məşğuldur. Qərbdən gələn təlimat və göstərişləri rəhbər tutar Ermənistan hakimiyyətinin əməlləri sülh prosesinə təhdidlər yaradır. Bu baxımdan Ermənistan rəhbərliyinin sülhlə bağlı mövqeləri yalnız quru sözlərdən ibarətdir.

Amma davamlı sülhə nail olmaq üçün Ermənistandan daha böyük səylər tələb olunur. Çünki bu yolda hazırda əsas maneə Ermənistan konstitusiyasında yer alan məsələlərdir. Ermənistan konstitusiyasında 1990-cı ildə bu ölkənin parlamenti tərəfindən təsdiq olunmuş və "Ermənistanla Dağlıq Qarabağın birləşməsi"nə çağıran "müstəqillik aktı" adlı sənədə istinad var. Konstitusiya isə hər bir dövlət üçün bütün beynəlxalq sənədlərdən və ya sazişlərdən üstün hüquqi sənəd sayılır. Heç kim deyə bilməz ki, Ermənistanda gələcəkdə konstitusiyaya istinad olunaraq sülh sazişindən imtina edilməyəcək. Ona görə dayanıqlı sülhə nail olmaq üçün Ermənistan konstitusiyasına dəyişiklik etməlidir. Bu, həm də Ermənistanın sülh məsələsində nə dərəcədə səmimi olduğunu göstərən faktordur. "Təbii ki, Ermənistanın hazırkı konstitusiyası dəyişməz qaldığı halda Ermənistanla Azərbaycan arasında sülh sazişinin bağlanması, sadəcə, mümkün deyil", - deyə bununla bağlı Prezident İlham Əliyev bildirib.

#### İtirən Ermənistan olacaq

Sülh prosesinin uğur qazanmasında şərtlərdən biri də fəaliyyətini tamamilə dayandırmış ATƏT-in Minsk qrupunun hüquqi ləğvidir. Qeyd edək ki, Azərbaycan İkinci Qarabağ müharibəsindəki qələbəsi ilə Minsk qrupunu da tarixin arxivinə göndərdi.

Fransa və Ermənistan Minsk qrupunun fəaliyyətinin canlandırılması ilə bağlı müxtəlif cəhdlər və təşəbbüslər göstərsələr də, Azərbaycan onların hamısının qarşısını aldı. Minsk qrupunun fəaliyyətinə artıq ehtiyacın qalmadığı həqiqətinin siyasi mərkəzlər tərəfindən qəbul edilməsi respublikamızın mühüm siyasi-diplomatik nailiyyətlərindən biridir.

Rəsmi Bakının bu istiqamətdəki qətiyyətinin nəticəsidir ki, Azərbaycanla Ermənistan arasındakı münasibətlərin normallaşdırılması ilə bağlı danışıqlarda artıq hər hansı vasitəçi və ya üçüncü tərəf iştirak etmir. İndi sadəcə qalır Minsk qrupunun hüquqi ləğvi.

Prezident İlham Əliyev qeyd edib: "Biz artıq bunu Ermənistan tərəfinə təklif etmişik ki, Azərbaycan və Ermənistan ATƏT-ə birgə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Minsk qrupuna heç bir ehtiyac yoxdur, o, indi fəaliyyət göstərmir. Biz onun fəaliyyət göstərməsinə de-fakto imkan verməyəcəyik. Qaldı ki, de-yure - hüquqi cəhətdən bu ləğv edilsin və bu, Ermənistanın nə qədər səmimi olmasından xəbər verəcək. Əgər Ermənistan Minsk qrupunun saxlanmasına üstünlük versə, deməli, onların bizə qarşı ərazi iddiaları davam edir".

Bütövlükdə, sülhə nail olmaq üçün Ermənistan işğalçı siyasətini hüquqi müstəvidə sonlandıran addımlar atmalıdır. Əgər bu baş verməzsə, itirən də yalnız Ermənistanın özü olacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Region ölkələri Azərbaycanı öz sıralarında görməkdən şaddırlar

Prezident İlham Əliyevin Mərkəzi Asiya və Azərbaycan Respublikası dövlət başçılarının görüşündə dünyada artan təhdidlər, müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsinin zəruriliyi barədə bəyanatı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin gözlənilməz mesajı ilə ahəngdar şəkildə əlaqələndirilir. Bu barədə AZƏRTAC-a şərqşünas alim, Qazaxıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının baş elmi işçisi Janat Momınkulov bildirib.

"Qazaxıstan Prezidenti də davam edən mürəkkəb hərbi-siyasi vəziyyət fonunda müdafiə siyasəti və təhlükəsizlik sahəsində əməkdaşlığa ehtiyac olduğunu bildirib", - deyə o qeyd edib.

Ekspertin sözlərinə görə, mürəkkəb geosiyasi şəraitdə həm Mərkəzi Asiya, həm də Azərbaycan ümumi təmas nöqtələri axtarışındadır və bir-birində qarşılıqlı dəstək tapır.

"Xarici siyasətin bu yeni istiqaməti perspektivli "Mərkəzi Asiya+Azərbaycan" formatı kimi görünür. Region ölkələri Azərbaycanın strateji tərəfdaşları və potensial müttəfiqləri kimi çıxış edərək, Qərblə Rusiya arasında qarşıdurma şəraitində qarşılıqlı faydalı geosiyasi və iqtisadi uyğunlaşma təklif edirlər", - deyə ekspert bildirib.

Ekspertin fikrincə, Bakı potensial və faktiki olaraq Türk dünyasının əsas tranzit mərkəzinə və nəqliyyat arteriyasına çevrilib. Buna görə də region ölkələri Azərbaycanı öz sıralarında qəbul etməkdən şaddırlar.

"Azərbaycanın 2020 və 2023-cü illərdə öz qanuni ərazilərini geri qaytarması ilə qazandığı Zəfəri Mərkəzi Asiya sakinlərinin şüurunda və Azərbaycan xalqına səmimi ehtiramında böyük rezonans doğurdu. Təcrübəli və mobil orduya malik Azərbaycan türk məkanının geosiyasətində nüfuzlu oyunçuya çevrilib, onun əhəmiyyəti Rusiya-Ukrayna müharibəsi fonunda yalnız artıb", - deyə o bildirib.

J.Momınkulov xatırladıb ki, düz bir il əvvəl Qazaxıstanın "KZ Pulse" yutub kanalına verdiyi müsahibədə Qazaxıstan və Özbəkistan arasında hərbi sahədə, eləcə də birbaşa olaraq Azərbaycanla müttəfiqlik əlaqələrinin inkişafı ideyası ilə çıxış edib.

Bu kontekstdə həm Azərbaycanın, həm də Mərkəzi Asiya ölkələrinin iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq operativ-taktiki komanda-qərargah təlimləri mühüm hadisədir. Mərkəzi Asiya kursantlarının Azərbaycanın hərbi təhsil müəssisələrində hazırlanması fantaziya idi, amma bu gün reallığa çevrilir", - deyə ekspert bildirib.

Onun sözlərinə görə, əgər dünyada strateji rolu kəskin şəkildə artan Mərkəzi Asiya nisbi sabitlik və Bakı üçün imkanlar təklif edirsə, o zaman Qazaxıstan üçün Azərbaycan regional siyasətdə yeni dayaq nöqtəsi ola bilər.

"Azərbaycan faktiki olaraq güclü dövlətlərdən birinə və Astananın etibarlı müttəfiqinə çevrilib, Bakı ilə hərbi-iqtisadi əməkdaşlıq regionun təhlükəsizliyini gücləndirər; Başqa sözlə, bundan sonra Azərbaycan Türkiyə ilə birlikdə kiçik, lakin effektiv ortamiqyaslı ittifaqın yaradılması çərçivəsində region üçün gələcəkdə təhlükəsizliyin aktorlarından birinə çevrilmək imkanı verən sabitləşdirici təsir göstərən orta ölçülü təhlükəsizlik aktorları ilə bərabər əsasda nəzərdən keçirilə bilər. Türk faktoru belə bir gələcək birləşmənin özəyi ola bilər.

Bu cür mövqe Mərkəzi Asiya ilə daha dərin əməkdaşlığı inkişaf etdirmək istəyən Avropanı da bizim tərəfimizə cəlb edəcək. Azərbaycan müxtəlif oyunçularla müttəfiqlikləri gücləndirməklə bacarıqlı və çoxsəviyyəli diplomatiya sayəsində Mərkəzi Asiya ilə də qarşılıqlı faydalı əlaqələr qurmağa çalışan Avropa üçün bir fürsət təqdim edir", - deyə o vurğulayıb.

J.Momınkulov qeyd edib ki, Azərbaycan və Mərkəzi Asiya arasında yaxınlaşma güclü mədəni amil nəzərə alınmaqla aparılan ehtiyatlı qiymətləndirmə ilə dəstəklənir. "Bizim gücümüz mədəniyyətimizdədir! Türklərin ortaq köklərə, mənəvi dəyərlərə malik vahid tarixi-mədəni və etnolinqvistik məkanı var. Dünyada heç kim bu amilin artan strateji əhəmiyyətinə məhəl qoymaya bilməz.

Biz dünya düzənində baş verən dəyişikliklər kontekstində hərtərəfli təhlükəsizlik sisteminin yaradılması əsasında türk birliyinin geosiyasi əhəmiyyətinin canlandırılması astanasındayıq", - deyə J.Momınkulov bildirib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Qərb Qafqazda sülh istəmir

### Ermənistanın ABŞ və digər ölkələr vasitəsi ilə silahlandırılması bunu təsdiqləyən reallıqdır

**Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqlarının hələ də nəticəsiz qalması bölgədə təhlükəsizliyin təminatını sual altında qoyur. Maraqlıdır ki, 4 ildir tərəflər arasında sülh müqaviləsinin bağlanmasını sözdə ən prioritet məsələ hesab edən beynəlxalq qurumlar, böyük dövlətlər yenə də ikili oyun oynayırlar.**




Bir tərəfdən müqavilənin bağlanması üçün vasitəçilik etməyə təşəbbüs göstərirlər, digər tərəfdən isə Ermənistana hərbi yardımlar göstərirlər. Bəs bölgədə sülh istəyən qüvvələrin Ermənistanı silahlandırmaq istəyi nədən irəli gəlir?!

Açıq-aydın görünür ki, İkinci Qarabağ müharibəsindən öncə həyata keçirilən ssenarilər bu gün başqa formatda davam etdirilir. Sözdə sülh istəyənlər, əslində, bu regionun müharibə ocağı kimi qalmasında maraqlıdırlar. Çünki şəxsi maraqları bunu tələb edir.

Öncə bir qədər əvvələ qayıdıb sülh danışıqları prosesinə nəzər yetirək. İlk olaraq Avropa Şurası, ardınca isə ABŞ ortalığa düşərək tərəflər arasında vasitəçilik missiyasını üzərilərinə götürdüklərini nümayiş etdirdilər. Azərbaycan da hər zaman olduğu kimi, sözünə sadiq qalaraq üçtərəfli görüşlərdə iştirak edib sülh üçün tələblərini irəli sürdü. Ermənistan da Azərbaycanın tələblərini qəbul etdiyini bəyan etdikdən sonra sülh müqaviləsinin bağlanması istiqamətində tapşırqlar verildi. Amma bir qədər sonra Avropa Şurası üçtərəfli danışıqlara Almaniya və Fransanı da qatmaq istədi. Bu isə onu göstərdi ki, xristian təəssübkeşliyi yenə də əsas istiqaməti dəyişməyə yönəlib.

Elə bu səbəbdən də qalib ölkənin qalib lideri İlham Əliyev bu cür formatlı danışıqlarda iştirakdan imtina etdi. Həmin qüvvələrə o da yaxşı bəllidir ki, İlham Əliyevin sözü imzası qədər keçərlidir. Azərbaycan Prezidenti sözünü deyir və arxasında da durur. Bu səbəbdən də vasitəçilər yavaş-yavaş aradan çəkilməyə qərar verdilər.

Nə baş verdi? Azərbaycan və Ermənistan baş-başa problemin həll yolunu tapdılar və vasitəçilərsiz danışıqlar fayda verdi. Sərhədlərin delimitasiya, demarkasiya prosesi başlandı. Azərbaycanın tələbindən sonra Ermənistan rəhbərliyi ölkə konstitusiyasında dəyişiklik etməyə də hazır olduğunu bildirdi. Çünki bu ölkənin konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları mövcuddur. Azərbaycan da haqlı olaraq həmin müddəaların dəyişdirilməsini tələb edir.

Beləliklə, vasitəçilərsiz danışıqlar müsbət nəticələr verməyə başladı. Bundan narahat olan bəzi dairələr yenə də danışıqlar prosesinə xələl gətirəcək addımlar atdılar. Öncə, "Avropa Sülh Fondu" adı ilə Ermənistana 10 milyon avroluq vəsaitin verilməsi, sonra isə aprelin 5-də Brüsseldə imzalanmış sənədin hərbi əməkdaşlığı nəzərdə tutan məxfi hissəsinə uyğun olaraq, Ermənistan Silahlı Qüvvələrinə ABŞ istehsalı olan yeni nəsil silahlar - snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli texnikanın təhvil verilməsi faktları ortalığı qarışdırdı.

Araşdırmalar nəticəsində bəlli oldu ki, adı "Sülh fondu" olan təşkilatın Ermənistana ayırdığı 10 milyon avro ölkənin silahlı birləşmələrinin maddi-texniki bazasının gücləndirilməsi üçündür. ABŞ-nin yardımları isə daha çoxdur. Rəsmi Vaşinqton yuxarıda sadalanan silahlardan əlavə, Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən minihücum pilotsuz təyyarələri, kiçikölçülü minalar və digər döyüş sursatlarını da Hayastana hədiyyə edib.

Əvvəlcə ABŞ tərəfi yayılan məlumatı təkzib etsə də, "Caliber.az" saytının yaydığı videogörüntülər faktı bir daha təsdiqlədi. Belə ki, "Flightradar" qlobal uçuş izləmə xidməti vasitəsi ilə əldə edilən görüntülərdə aydın şəkildə bilinir ki, 2-3 avqustda ABŞ-nin Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından Ermənistanın Zvartnots hava limanına 2 hərbi təyyarə qalxır. ABŞ Silahlı Qüvvələrinə məxsus "Boeing C-17" hərbi yük təyyarəsi ilə şəxsi heyət hərbi yüklərlə birlikdə Zvartnots hava limanına gətirilir. Daha sonra qeyd etdiyimiz kimi, ABŞ hərbi yük təyyarələri ilə Ermənistana külli miqdarda silah-sursat gətirilib. Bu silahların yerli relyef və hərbi şəraitə uyğunlaşdırıldığı da bildirilir.

Lakin bu da hamısı deyil. ABŞ təbii olaraq bu missiyanı erməni hərbçilərinə həvalə etməyib, bu cihazları idarə edəcək 30-50 nəfəri də Ermənistana göndərib. Rusiya və İranın diqqətini İranla sərhəddə yerləşdiriləcək şəxsi heyətə cəlb etməmək üçün hərbçilər seçilib - onların əksəriyyəti Amerika ordusunda xidmət edən erməniəsilli ABŞ vətəndaşlarıdır. Həmçinin postsovet ölkələrindən ABŞ-yə köçmüş slavyan və qafqazlı insanlardan ibarət şəxsi heyət Ermənistan silahlı bölmələrinin hərbi geyimi ilə təchiz olunub və Ermənistan Silahlı Qüvvələrinin Zəngəzurdakı hərbi bazasında yerləşdirilib.

Göründüyü kimi, bir tərəfdən Fransa, digər tərəfdən ABŞ-nin Ermənistanı silahlandırması bu qüvvələrin, əslində, Qafqazda sülh istəmədiyini bir daha təsdiqləyir. Ermənistan isə hər zamankı kimi yenə də havadarlarının "çaldığı havaya oynayaraq" özünü çətin vəziyyətə salır. İrəvan unudur ki, "Dəmir yumruq" 2020-ci ildəkindən indi daha güclüdür. Yeganə çıxış yolu sülhdür!

Bunu həm də Hayastanı silahlandıran, bu ölkəyə maliyyə yardımları edən, regionun yenidən müharibə ocağına çevrilməsini arzulayan qüvvələr də yaxşı anlamalıdırlar. Azərbaycanın məqsədi Cənubi Qafqazın savaş deyil, sülh və əmakdaşlıq mərkəzinə çevrilməsidir və bu, Prezident İlham Əliyevin siyasətinin prioritetidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## ABŞ-nin qanunsuz silah yardımı

### Ermənistanın dövlətçiliyini təhdid edir



"Amerika Birləşmiş Ştatlarının, eləcə də Avropanın bir sıra dairələrinin ölkəmizə qarşı qərəzli mövqeyini hər zaman müşahidə edirik. Ermənistanın Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxladığı 30 il ərzində ABŞ bir dəfə də olsun bu ölkəni qınamadı. Amma 1992-ci ildə Azərbaycana qarşı "Azadlığı Müdafiə Aktı"na ədalətsiz 907-ci düzəlişi qəbul etdi".

Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, bu, Ermənistanı işğalçılıq siyasətini davam etdirməyə daha da həvəsləndirdi. Özünü tam şəkildə cəzasızlıq şəraitində hiss edən Ermənistan Azərbaycanın yeni ərazilərini işğal etmək niyyətində olduğunu açıq şəkildə bəyan etməkdən çəkinmədi. Son günlər yenə də Ermənistanda müxtəlif səviyyələrdə anti-Azərbaycan ritorikası güclənib. Sərhədlərin müəyyənləşməsi istiqamətində görüşlərin dayanması, işçi qrupun fəaliyyətsizliyi, London görüşündən imtina, Ermənistanın konstitusiyasında dəyişikliyin edilməsinə meylin görünməməsi, rəsmi Bakının təkliflərinə hələ də mükəmməl cavab verilməməsi rəsmi İrəvanın sülh, normallaşma prosesi ilə bağlı işini yalnız quru açıqlamalarla bitmiş hesab etməsindən xəbər verir. Bu da əvvəllər Azərbaycanla münasibətlərin qurulmasında daha maraqlı görünən Ermənistanı qarışdıranların olduğunu göstərir: "Flightradar" uçuşları izləyən sistemə əsasən, avqustun 2-də və 3-də ABŞ-nin Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından İrəvanın "Zvartnos" hava limanına iki hərbi təyyarə enib. Amerikanın "Boinq C-17" hərbi yük təyyarəsində Ermənistana silah-sursat və şəxsi heyət gətirilib. Bu yaxınlarda Ermənistan Müdafiə Nazirliyində Pentaqonun yüksəkrütbəli zabitinin xidmətə başlaması Ağ Evlə İrəvan arasında hərbi əməkdaşlığın inkişafının göstəricisidir. Avropa İttifaqının və ABŞ-nin işğalçı dövlətə külli miqdarda maliyyə ayırması Qərbin tarixi Zəfərimizi, ən əsası, uğurlarımızın əsasında dayanan müstəqil siyasətimizi qısqanclıqla qarşıladığının daha bir sübutudur".

K.Bayramov qeyd edib ki, maliyyə yardımları işğalçı düşüncədən xilas olmayan Ermənistanın təcavüzkar ruhunu dirçəldir. Çünki rəsmi İrəvan Azərbaycan və Türkiyəyə torpaq iddiası, saxta soyqırımının tanınması iddiasını özündə ehtiva edən konstitusiyasını dəyişmək istiqamətində hələ də real addım atmayıb. Qərbin Xocalıda 613 nəfəri qəddarcasına öldürən, minlərlə insanı şikəst edən, bir milyondan artıq azərbaycanlını doğma yurd-yuvasından didərgin salan işğalçı, təcavüzkar ölkəyə dövlət səviyyəsində dəstək göstərməsi yolverilməzdir. Dövlət başçısı İlham Əliyevin "Bəzi hallarda həqiqətlərə göz yumulur. Müəyyən dairələr öz siyasətini uydurulmuş faktlar, təhrif edilmiş tarix əsasında aparmağa davam edirlər. Bu, ikili standartlar siyasətidir. İkili standartlar ədalətsizlik deməkdir. İşğalçı ilə işğalın qurbanını, necə deyərlər, bir səviyyədə görmək nə qədər ədalətlidir?!" - fikri beynəlxalq hüququn norma və prinsiplərini bütün ölkələrə eyni şəkildə tətbiq etməyən dövlətlərə tutarlı cavabdır.

Deputat diqqətə çatdırıb ki, ölkəmiz nə ABŞ, nə də digər qərəzli mövqe sərgiləyən dövlətlər qarşısında heç bir öhdəlik götürməyib. Azərbaycan heç bir dövlətin daxili işinə müdaxilə etmir və öz daxili işinə müdaxiləni də yolverilməz hesab edir. ABŞ və digər qərəzli ölkələr özlərinin günbəgün artan dövlət borclarından başlayaraq, irqi ayrı-seçkiliyin, polis zorakılığının, kriminal hadisələrin baş alıb getməsi və digər çoxsaylı daxili problemləri ilə məşğul olsalar, daha düzgün olar.

Bu gün dünyanın müxtəlif bölgələrində baş verən siyasi kataklizmlərdə, müharibələrdə, dövlət çevrilişlərində, vətəndaş müharibələrində ABŞ-nin iştirakının göz önündə olduğunu vurğulayan müsahibimiz xatırladıb ki, uzun illər Əfqanıstanı işğal altında saxlayan Amerika bu ölkədə heç bir abadlıq yaratmayıb, bütün ölkəni narkotik plantasiyasına çevirib: "Son məlumatlara görə, ABŞ Əfqanıstanı tərk etdikdən sonra bu ölkədə narkotik plantasiyalarının həcmi 20 dəfədən çox azalıb. Bu gün dünyada baş verən bütün savaşların ssenari müəllifi məhz Amerikadır. Ermənistana ardıcıl maliyyə və humanitar yardımın göstərilməsi, silahlandırılması istiqamətində atılan addımlar, Paşinyan başda olmaqla Ermənistan rəsmilərinə edilən siyasi reveranslar Avropa təsisatlarının ədalətli ola bilməmələrinin sübutudur. Gördüyümüz kimi, Qərb Azərbaycanın maraqlarını, Cənubi Qafqazın təhlükəsizliyini nəzərə almadan Ermənistanı gücləndirməyə başlayıb".

Qərbin Cənubi Qafqaza sağlam niyyətlə baxmadığını qeyd edən K.Bayramov bildirib ki, Ermənistan başa düşməlidir ki, ABŞ-nin bu tip siyasi riyakarlıqlarla dolu addımları bölgədə sülhə, sabitliyə mane olmaqla, əslində, onun dövlətçiliyini təhdid edir. Azərbaycan artıq ərazi, sərhəd bütövlüyünü və bütün ərazilərində konstitusiya quruluşunu tam bərpa etməklə, bölgədə separatizmin sonunu gətirməklə Qərbin iradəsi ziddinə yeni reallıq formalaşdırıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Fransada siyasi xaos davam edir

### Tarixi ənənəyə məhəl qoymayan prezident Emmanuel Makron baş nazirliyə namizəd irəli sürə bilmir

Parisdə XXXIII Yay Olimpiya Oyunları və bununla da prezident Emmanuel Makronun Olimpiada zamanı elan etdiyi daxili siyasi barışıq başa çatıb.

Beləliklə, heç bir partiyanın mütləq səs çoxluğu qazanmadığı ölkəni siyasi xaosa sürükləyən növbədənkənar parlament seçkilərinin ikinci turundan beş həftə sonra Fransada siyasi şahmat oyunu yenidən qızışır. İndi dövlət başçısı müttəfiqi Qabriel Attalı baş nazir kimi əvəz edəcək şəxsi tapmalı və praktiki olaraq üçə bölünmüş parlamenti dövlət büdcəsini qəbul etməyə hazırlamalıdır.

Ötən ay istefa vermiş, lakin səlahiyyətlərinin icrasını davam etdirən baş nazir Qabriel Attal sraqagün millətçi "Milli Birlik" və radikal solçu "Yenilməyən Fransa" partiyayaları istisna olmaqla, müxtəlif partiyaların liderlərinə məktub göndərib.

Məqsəd qanunvericilikdə kompromis tapmaq və hakim koalisiya yaratmaqdır.

"Yol xəritəsi"nə altı əsas bənd daxildir, o cümlədən ölkənin dövlət maliyyəsinin əsaslı şəkildə yenidən qurulması məsələsi. Həmin məsələ Avropa Komissiyasının iyun ayında Aİ-nin büdcə qaydalarını pozduğuna görə Fransaya töhmət verməsindən sonra müzakirə mövzusuna çevrilib.

Fransanın büdcə planı ən geci oktyabrın əvvəlində Milli Assambleya üzvlərinə təqdim edilməli olduğu üçün vaxt problemi yaşanır. Məhz buna görə də Makron və onun partiyası ölkənin yeni baş nazirinin namizədliyini irəli sürmək üçün çoxluq yaratmağa tələsir. Növbədənkənar seçkilərdə ən çox mandat qazanan solçu koalisiya olan "Yeni Xalq Cəbhəsi" dövlət qulluqçusu və iqtisadçı Lüsi Kastenin namizədliyini irəli sürüb.

Ancaq Makron namizəddən imtina edib və bu, güclü etiraza səbəb olub. Çünki tarixən qəbul edildiyi kimi, baş nazir parlamentdə ən çox yerə sahib olan partiyanın təmsilçisi olmalıdır.

Baş nazirliyə namizədin irəli sürülməsi üçün dəqiq qaydalar müəyyən edilməyib. Buna görə də prezidentə təzyiqlər artır. "20 Minutes" portalının sorğusunda iştirak edən ekspertlər razılaşırlar ki, Olimpiada qaçılmaz siyasi böhranı yalnız təxirə salıb. Politoloq Emmanuel Rivyerin fikrincə, "bu, ümumi atmosferə təsir edir, lakin siyasi vəziyyətə təsir göstərmir.



Situasiya dalana dirənib, bir çox seçici məyusdur... Fransızlar əvvəlkitək Emmanuel Makrondan çox narazıdırlar".

Ötən ayın sonunda keçirilən sorğu göstərdi ki, prezidentə etimad səviyyəsi cəmi 27 faiz təşkil edir. Fransa parlamenti üzvlərinin dediyinə görə, Makron gələn həftənin sonuna qədər baş nazirin namizədliyini irəli sürmək niyyətindədir. "Le Journal du Dimanche" qəzeti yazıb ki, Makron son vaxtlar ölkənin keçmiş baş naziri, sosialist Bernar Kaznevlə müntəzəm əlaqə saxlayır.

2016-2017-ci illərdə hökumətə rəhbərlik etmiş 61 yaşlı Kaznev bu dəfə də baş nazir vəzifəsinə namizədliyini irəli sürməyə hazır olduğunu bildirib. Onun əsas məqsədi "ölkənin deqradasiyaya və nəzarətsizliyə doğru sürüklənməməsini" təmin etməkdir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Makronistlər assambleyada koalisiya axtarışındadırlar

Fransanın istefa vermiş baş naziri, "İntibah" ("Renaissance") partiyası deputatlarının rəhbəri Qabriel Attal Milli Birlik (RN) və "Əyilməz Fransa (LF) partiyaları istisna olmaqla, Milli Assambleyada təmsil olunan siyasi partiya liderlərinə ünvanladığı məktubda "fəaliyyət planı" təklif edib.

AZƏRTAC xəbər verir ki, "İntibah" partiyasının baş katibi Stefan Sejurne tərəfindən göndərilmiş məktubda Q. Attal bildirir ki, məqsədi adi fikir ayrılığını aradan qaldırmaqla dialoq vasitəsi ilə Milli Assambleyada yeni bir yol tapmaqdır.

Q. Attal məktubda dövlət hesablarının bərpası, iqtisadi suverenliyin gücləndirilməsi, dəyərlərin müdafiəsi, dünyəvilik və dövlət təssisatlarının yenilənməsi, eləcə də alıcılıq qabiliyyəti, mənzil, ətraf mühit, təhlükəsizlik və iş yerləri vasitəsilə fransızların həyat şəraitinin yaxşılaşdırılması kimi üzərində işlədiyi əsas layihələrdən söz açır. "Bütün qrupumla birlikdə bu prioritetləri müzakirə etmək üçün sizin ixtiyarınızdayam",- deyə Qabriel Attal siyasi partiyaların liderlərini fikir ayrılıqlarını aradan qaldırmağa çağırıb. Məktub Respublikaçı (sağlar), Demokrat Solçu və Respublikaçılara, Ekoloq və Sosial qrupa, Liot qrupuna və Sosialistlər və əlaqəli qrupların rəhbərlərinə göndərilib.

Qeyd edək ki, Makron partiyası parlament seçkilərinin ikinci turundan sonra Milli Assambleyada koalisiya axtarışında da bu günə qədər buna nail olmayıb. E. Makronun Olimpiya oyunları zamanı barışığa çağırmaq məqsədi də koalisiya yaratmaq üçün vaxt qazanmaq məqsədi daşıyırdı. Buna baxmayaraq, makronçular hələ də Milli Assambleyada koalisiya yarada bilməyiblər.

## *Türkiyə mediası:* ABŞ odla oynayır! Amerika hərbçiləri Ermənistandadır




Türkiyənin "Milliyet" qəzeti ABŞ-nin Ermənistanda hərbi mövcudluğu mövzusunda məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, "ABŞ odla oynayır! Amerikalılar Azərbaycanın radarındadır, Ermənistanda əlavə qoşunlar" sərlövhəli məqalədə "Eagle Partner" təlimlərinin başa çatmasına baxmayaraq, Amerika hərbçilərinin Ermənistanda qalması ilə bağlı Azərbaycan mətbuatında yayılan xəbərlərə diqqət çəkilir.

Türkiyə qəzeti yazır: "Birləşmiş Ştatlar hərbi qulluqçularının hamısını Ermənistandan çıxarmayıb, onları gizli şəkildə Zəngəzur rayonuna yerləşdirib. Amerika tərəfinin hərəkətləri ilə bağlı iddialar qəzəb fırtınasına səbəb olub. Azərbaycan mediası Vaşinqtonu regionda qüvvələr balansını dəyişməyə çalışmaqda ittiham edib".

Nəşr diqqəti 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda formalaşmış və Azərbaycan torpaqlarının 30 ilə yaxın erməni işğalından azad edilməsi ilə nəticələnən yeni reallıqlara yönəldib. Məqalədə xatırladılıb ki, 2023-cü ilin sentyabrında Azərbaycan ordusu cəmi 24 saat ərzində işğalçıları məğlubiyyətlə barışmağa məcbur edib.

"Milliyet" qəzeti daha sonra İrəvan ilə Moskva arasında münasibətlərdəki gərginliyin Rusiya hərbçilərinin Ermənistandakı dislokasiya yerində etirazlara səbəb olmasından yazıb.

Məqalənin müəllifi Hüseyn Narin qeyd edib ki, Nikol Paşinyan hökumətinin müttəfiqləri olan ABŞ və Fransa Azərbaycanın qələbəsindən narahat olduqlarını gizlətmirlər. Məqalədə daha sonra diqqətə çatdırılır: "2023-cü ilin payızında bir qrup amerikalı hərbçi "Eagle Partner" təlimlərində iştirak etmək bəhanəsi ilə ilk dəfə Ermənistana gəlib. Bu gözlənildiyi kimi, Moskvanın mənfi reaksiyasına səbəb olub. Rusiya Xarici İşlər Nazirliyi İrəvana açıq şəkildə NATO ilə yaxınlaşmanın yolverilməzliyi barədə xəbərdarlıq edib".

"Milliyet" Azərbaycan mətbuatında dərc olunmuş xəbərlərə istinadla qeyd edib ki, "Eagle Partner" təlimləri başa çatdıqdan sonra Amerika hərbi-nəqliyyat təyyarəsi "Zvartnots" hava limanına eniş edib. Müəllif yazır: "Amerika ordusunun Cənubi Qafqazda görünməsi təsadüfi deyil. ABŞ-nin İrəvandakı səfirliyi birgə təlimlərin başa çatdığını rəsmən elan etsə də, ABŞ hərbi-nəqliyyat təyyarələrinin İrəvana çatdırdığı yüklər çoxsaylı suallar doğurur".

Məqalədə həmçinin göstərilir ki, Amerika hərbçilərinin İran sərhədləri yaxınlığında peyda olması Tehranı ciddi seçim qarşısında qoyub.




◆ Bakı COP29-a hazırlaşır

# Bakı COP29-un yolunu gözləyir

## Vaxt daraldıqca hazırlıq işləri sürətlənir



**UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil etdiyi dünyanın 66 şəhərindən biri Bakıdır. Paytaxtımız bu şərəfə özünün dizaynı, sənətə və sənətkarlığa, ədəbiyyat və incəsənətə verdiyi diqqəti, dəyəri ilə layiq görülüb.**

Paytaxtımız üç ay sonra 10 gün ərzində daha bir beynəlxalq qlobal tədbirə evsahibliyi edəcək. Artıq xeyli vaxtdır COP29 dediyimiz həmin tədbirə hazırlıq gedir. Şəhərin siması gündən-günə dəyişir, daha cəlbedici olur. Bu dəyişikliyi yaradan, cəlbediciliyi bəxş edən inşaatçılar, abadlıq işçiləri gecə-gündüz, isti-soyuq bilmədən çalışırlar. Çalışırlar ki, Bakı bu dəfə də qonaqları heyran etsin, onlara unudulmaz günlər yaşatsın.

Təqdim etdiyimiz fotolardan da göründüyü kimi, küçə və prospektlər, yollar, yaşayış binalarının və inzibati strukturların fasadları, dam örtükləri, balkonları təmir edilir, rənglənir. Səki kənarlarına quraşdırılan yeni bardürlər, eləcə də yolların kənarına döşənən dekorativlər bir ayrı gözəllikdən, dizayndan xəbər verir. Uzun müddət "işsiz" qalan fəvvarələr də canlanır. Bakının gözəlliyinin üstünə əlavə gözəllik qatan bu dəyişikliklərin əcnəbi qonaqların gözünü oxşamayacağı sadəcə mümkün deyil.

Şəhərdə aparılan abadlıq və quruculuq işlərinin sırasında yer alan məkanlardan biri də metronun "28 May" stansiyasının və Dəmiryol vağzalının qarşısındakı meydandır. Ümumi ərazisi 3,5 hektar olan meydanda aparılan təmir-yenidənqurma işlərinin sürəti onu göstərir ki, insanların daha çox toplaşdığı, sıx gediş-gəliş etdiyi, eləcə də yaxın ətrafda turistlərin məskunlaşdığı bu məkan qısa bir müddətə başqa bir yer olacaq.

Paralel olaraq Yusif Səfərov küçəsinin ərazisindəki istismar müddəti bitmiş tikililər sökülür. Bu ərazidə yaşayan sakinlər və obyekt sahibləri mövcud qanunvericiliyə uyğun kompensasiya ödənilməsi şərti ilə köçürülür. Nərimanov rayonunun Ceyhun Hacıbəyli, Nəsib bəy Yusifbəyli, Vaqif küçələrinin kəsişməsində, keçmiş "antenna" sahəsinin ərazisində isə yeni meqapark salınır. Yeni park həm paytaxtın ekoloji vəziyyətini yaxşılaşdıracaq, həm də ətraf ərazilərdə yaşayan sakinlərə istirahətlərini yüksək səviyyədə təşkil etməyə imkan verəcək.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev avqustun 5-də Xətai rayonu ərazisində "Cavanşir" körpüsünün yerində inşa olunmuş yeni avtomobil yolunun açılışında iştirak etmişdir. Qeyd edək ki, dövlət başçısının tapşırığına əsasən, Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və tıxac probleminin nisbətən azaldılması məqsədi ilə uzun illər istismar edildiyindən yükgötürmə qabiliyyətini itirmiş "Cavanşir" körpüsü sökülərək yerində şəhərəhəmiyyətli yeni avtomobil yolu salınmışdır. Dörd hərəkət zolaqlı yeni yolun uzunluğu 400 metrdir. Bundan başqa, COP29 ərəfəsində köhnə parklara əl gəzdirilərək Bakının müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun dizayn edilir, yeni yaşıllıq zolaqları salınır. Bu zaman Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin və digər kommunal xidmətlərin əməkdaşları tərəfindən Abşeronun iqliminə uyğun yeni ağaclar, kollar seçilir, onlara aqrotexniki qulluq göstərilir, təbii gübrələr verilir.







Şəhərin sanitar təmizliyinin qorunması üçün də mütəmadi tədbirlər görülür - magistral yol və prospektlərin kənarlarındakı aqaclar tez-tez yuyulur, dibləri yumşaldılır, gövdələri əhənglənir, həmçinin ağacların qurumuş budaqları budanır. Prospekt və küçələrin, səki kənarlarının, bardürlərin, işıq dirəklərinin, yol kənarındakı müxtəlif məhəccərlərin yuyulması da unudulmur.

Qeyd edək ki, paytaxtda həyata keçirilən genişmiqyaslı bu tədbirlər mütəxəssislərin, o cümlədən memarların, ictimai xadimlərin rəyi nəzərə alınmaqla həyata keçirilir.

*Züleyxa ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# "COP29 bütün region üçün böyük əhəmiyyətə malikdir"

Bu ilin noyabrında Bakıda keçiriləcək COP29 iqlim konfransı həm Azərbaycan, həm də bütün region üçün böyük əhəmiyyətə malikdir. Bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbətində Ukrayna Ali Radasının İqtisadi inkişaf komitəsinin sədri Dmitri Nataluxa bildirib.



Ukraynalı deputat deyib: "Şotlandiyada keçirilən iqlim konfransında (Qlazqoda COP26, 2021-ci il - red.) şəxsən iştirak etmişəm və belə bir tədbirin ona evsahibliyi edən ölkə üçün nə qədər qlobal əhəmiyyət kəsb etdiyini başa düşürəm. Bu, böyük diqqətin əlamətidir, eyni zamanda investisiya ilə bağlı potensial danışıqlar, bərpaolunan enerji sahəsində qabaqcıl mövqe - qlobal liderlik üçün bir təklifdir. Azərbaycanda bütün bunlar mövcuddur. Bu, ona iqtisadi və enerji baxımından yeni liderlərdən biri kimi güclənməyə kömək edəcək əlavə potensialdır. Biz də COP29 iqlim konfransına böyük ümid və tərəfdaşlıq perspektivləri prizmasından baxırıq".

Deputat vurğulayıb ki, Kiyevdə bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı arasında energetika kabeli ilə bağlı sazişin imzalanması xəbərini böyük maraqla qarşılayıblar.

Dmitri Nataluxa qeyd edib: "Ukrayna təbii ki, Azərbaycandan elektrik enerjisi və enerji məhsullarının istehlakçılarından birinə çevrilməkdə maraqlıdır. Bu, xüsusən də Rusiya ilə müharibəmiz və enerji böhranı fonunda aktualdır. Aydındır ki, biz yeni mənbələr axtarırıq. Azərbaycan Ukraynanın çoxdankı tarixi tərəfdaşı və dostudur, eyni zamanda enerji baxımından da ticarət tərəfdaşı kimi çıxış edə bilər". Deputat diqqətə çatdırıb ki, Ukrayna qaz və elektirk enerjisinin tranzit nəqli ölkəsinə də çevrilə bilər. O əlavə edib: "Ümidvaram ki, fürsətdən istifadə edərək bu kabelə qoşula və beləliklə, hər hansı bomba və ya təcavüzkardan asılı olmayaraq, elektrik enerjisinin tamamilə avtonom mənbəyini əldə edə bilərik. Müvafiq olaraq, Azərbaycanın bu dayanıqlı inkişafa, yəni dayanıqlı enerjinin davamlı inkişafına diqqət yetirməsi böyük bir faktordur və çox mütərəqqi prosesdir. Bu, ona gələcəkdə istənilən çağırış və təhdidlərə məhəl qoymamağa imkan verəcək bir amildir, həm də bölgədəki vəziyyətdən və yaranmış hər hansı şəraitdən asılı olmayaraq. Biz bunu öz nümunəmizdə gördük; enerji istehsal sistemi nə qədər çoxşaxəlidirsə, küləkdən günəşə, nüvəyə, qaza, kömürə qədər mövcud mənbələr daha çoxdursa, bir ölkənin uzunmüddətli perspektivini və inkişafını planlaşdırması da o qədər asan olur. Eyni zamanda ölkə hər hansı potensial problem qarşısında özünü daha inamlı hiss edir. "Yaşıl enerji"yə dair ümumi qlobal kurs Azərbaycanın qarşısına qoyduğu ambisiya və perspektivlərə tamamilə uyğundur. Ukraynada çox şadıq və sevinirik ki, bizim belə tərəfdaşımız və etibarlı dostumuz var".

# "Qara dəniz sualtı kabel" layihəsinin texniki və iqtisadi cəhətdən səmərəliliyi təsdiqlənib

Beynəlxalq texniki-iqtisadi əsaslandırma Azərbaycanın təşəbbüskarı olduğu Qara dəniz "yaşıl enerji" kabelinin tikintisi layihəsinin iqtisadi və texniki cəhətdən səmərəliliyini təsdiqləyib. Renewables.az xəbər verir ki, bu barədə Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyi məlumat yayıb.




2022-ci ildən həyata keçirilən texniki-iqtisadi əsaslandırma "Gürcüstan Dövlət Elektrik Sistemi" dövlət şirkətinin sifarişi, eləcə də Dünya Bankı və Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyinin dəstəyi ilə İtaliyanın CESI konsaltinq şirkəti tərəfindən hazırlanıb.

"Bu araşdırmaya əsasən, Qara dəniz sualtı kabel layihəsi perspektivli olmaqla yanaşı, texniki və iqtisadi cəhətdən də həyata keçirilməsi mümkündür", - məlumatda bildirilib.

Qeyd olunub ki, araşdırma çərçivəsində elektrik kabelinin optimal xarakteristikası müəyyən edilib, tikinti xərcləri hesablanıb və layihənin iqtisadi təhlili aparılıb. Həmçinin kabelin quru və dənizdəki hissələrinin ilkin marşrutu müəyyən edilib, layihənin icra planı və satınalma strategiyası hazırlanıb. Dəniz dibinin geotexniki, geofiziki, ekoloji və arxeoloji tədqiqatlarının aparılması üçün tələb olunan işlərin təsviri və tenderlə bağlı texniki tapşırıq da hazırlanıb.

2025-2026-cı illərdə ətraf mühitə və sosial təsirlə bağlı tədqiqatlar, eləcə də layihənin dəniz dibinə təsirinin qiymətləndirilməsi həyata keçiriləcək. 2024-cü ilin may ayında "Transelectrica" və layihədə iştirak edən digər ölkələrin tərəfdaş operatorları olan "AzərEnerji" (Azərbaycan), "Georgian State Electrosystem" (Gürcüstan) və MVM (Macarıstan) arasında layihə üzrə şirkətin yaradılması haqqında memorandum imzalanıb. Adı hələlik məlum olmayan yeni birgə müəssisənin baş ofisi Buxarestdə yerləşəcək.

Kabel Azərbaycanda istehsal edilən "yaşıl elektrik enerjisi"nin Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya çatdırılaraq, Macarıstana və Avropanın qalan hissəsinə nəql edilməsi üçün nəzərdə tutulub. Kabel 3-4 il ərzində çəkiləcək.

Avropa Komissiyası bu layihəyə 2,3 milyard avro ayırmağı planlaşdırır.

# Azərbaycanda günəş enerjisi istehsalı 9 dəfəyə yaxın artıb

Bu ilin yanvar-iyul aylarında ölkənin günəş-elektrik stansiyalarının elektrik enerjisi istehsalı 352 mln. kVt-saat təşkil edib.

Renewables.az Energetika Nazirliyinin yaydığı elektrik enerjisinə dair operativ məlumatlara əsasən xəbər verir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 312,4 mln. kVt-saat və ya 8,9 dəfə çoxdur.

Qeyd edək ki, hesabat dövründə Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə günəş-elektrik stansiyalarında 36,8 mln. kVt-saat elektrik enerjisi istehsal edilib.



# *Qasım MOHİUDDİN:* "Pakistan COP29-un yüksək səviyyədə təşkil olunması üçün Azərbaycana dəstək göstərməyə hazırdır"

Pakistan COP29-un yüksək səviyyədə təşkil olunması üçün Azərbaycana dəstək göstərməyə hazırdır. Bunu "Report"a açıqlamasında Pakistanın Azərbaycandakı səfiri Qasım Mohiuddin deyib.



Onun sözlərinə görə, COP29 Azərbaycan üçün əlamətdar hadisədir: "Biz beynəlxalq tədbirin yüksək səviyyədə təşkil olunması üçün hər fürsəti yaratmağa, Azərbaycana dəstək göstərməyə hazırıq".

Səfir Pakistanın Baş naziri Şahbaz Şərifin COP29-da iştirak üçün Azərbaycana edəcəyi səfər çərçivəsində iki ölkənin birgə əməkdaşlığının inkişafı üçün görüləcək işlərdən də danışıb: "Hazırda səfərin gündəliyi məlum deyil. Hansısa sənədlərin imzalanıb-imzalanmayacağı bəlli deyil. Səfərin məqsədi COP29-da iştirak olacaq. Ətraf mühit, iqlim mövzularında müzakirələr aparmaqda, əməkdaşlıqda maraqlıyıq və COP çərçivəsində Azərbaycana bacardığımız dəstəyi göstərməyə hazırıq".




**AZERBAIJAN COP29**

**Yaşıl dünya naminə həmrəylik ili 2024**



# COP29 Azərbaycanı beynəlxalq miqyasda ən yüksək liqaya çıxarır

Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a evsahibliyi etməsi Qoşulmama Hərəkatına sədrlik və BMT Təhlükəsizlik Şurasına üzvlükdən sonra ölkəmizin xarici siyasətinin ən böyük uğurudur.




Bu baxımdan Azərbaycanın COP29-a evsahibliyi etməsinin əhəmiyyəti bu tədbirlə bağlı ölkəmizə yönələn qaralama kampaniyasından qat-qat önəmlidir. Media Təhlil Mərkəzi "COP29 Azərbaycanı beynəlxalq miqyasda ən yüksək liqaya çıxarır" başlıqlı məqalə hazırlayıb. AZƏRTAC məqaləni təqdim edir.

Azərbaycan öz namizədliyini verən kimi ölkəmiz qlobal hücumların hədəfinə çevrilib və bu prosesdə Qərb mediası xüsusi fəallıq göstərir. Onlar Azərbaycanın neft-qaz ölkəsi olduğu halda nə üçün bu tədbiri keçirməsi sualını tez-tez gündəmə gətirir. Halbuki Azərbaycandan əvvəl bu tədbir Birləşmiş Ərəb Əmirliklərində, ondan əvvəl Misirdə keçirilib, bizdən sonra isə COP-a Braziliya evsahibliyi edəcək. Onların hamısı neft-qaz resursları ilə zəngin ölkələrdir və inkişaf etmiş ölkələrdən fərqli olaraq bu tədbirə evsahibliyi etməklə dünyanın bir nömrəli probleminin həllinə ciddi töhfələr verirlər.

Son illərdə qlobal iqlim konfransının əsasən neft-qaz resursları ilə zəngin ölkələrdə keçirilməsi ilk növbədə bu ölkələrin enerji təhlükəsizliyi baxımından özlərini çox rahat hiss etməsi ilə bağlıdır. Digər tərəfdən bu resurslarla zəngin olan ölkələr müstəsna məsuliyyət hissi nümayiş etdirərək yaşıl texnologiyaya, "yaşıl keçid"ə ciddi sərmayə qoyur və bu sahənin təşviqinə töhfə verirlər. Onlar yaşıl dünyanın qurulması üçün beynəlxalq səylərin birləşdirilməsinə çalışır və təcrübə göstərir ki, qlobal iqlim böhranının qarşısının alınması ilə bağlı irəli sürülən təşəbbüslər məhz həmin ölkələrin nümunəsində daha effektiv və səmərəlidir. Ona görə də noyabrda Azərbaycanın qlobal miqyasda ən mühüm hadisələrdən birinə evsahibliyi etməsi və beynəlxalq arenanın bir nömrəli konfransının ilk dəfə postsovet məkanında keçirilməsi tarixi əhəmiyyət daşıyır. Çünki COP29-un Azərbaycanda keçirilməsi ölkəmiz üçün misilsiz şans olmaqla onu beynəlxalq miqyasda ən yüksək liqaya çıxarır. Digər tərəfdən bu tədbir Azərbaycana yalnız onu keçirməyə deyil, həm də mahiyyəti üzrə təşəbbüslər irəli sürməyə imkan verir. Bununla da ölkəmiz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qurur. Bu, həm də onu göstərir ki, Azərbaycan iqlim dəyişikliyinə qarşı əlaqələndirilmiş cavab tədbirlərinin vacibliyini dərk edir, birgə təşəbbüslər vasitəsilə davamlı gələcəyə doğru irəliləyişi sürətləndirməyi hədəfləyir. Bundan əlavə, qarşılaşdığımız problemlər kollektiv fəaliyyət, razılaşdırılmış ümumi məqsəd və istəklərə sədaqət tələb edir. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin əhəmiyyətini anlayır. Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a evsahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi bugünkü uğurumuzda həlledici rol oynayıb.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaldılmasından ibarətdir. Bundan əlavə, Prezident İlham Əliyev işğaldan azad edilmiş torpaqları "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

# Ümumdünya Fəlsəfə Konqresində COP29-la bağlı "dəyirmi masa" təşkil olunub

Sosial Tədqiqatlar Mərkəzinin (STM) İdarə heyətinin üzvü, Daxili Siyasətin Təhlili Departamentinin müdiri, professor Tahirə Allahyarova İtaliyanın paytaxtı Roma şəhərində keçirilən 25-ci Ümumdünya Fəlsəfə Konqresində (The 25th World Congress of Philosophy (WCP) iştirak edib.

AZƏRTAC xəbər verir ki, əsas şüarı "Sərhədləri aşan fəlsəfə" ("Philosophy Across Boundaries") olan konqresə dünyanın 120 ölkəsindən 5000 alim və tədqiqatçı qatılıb. Konqres tədqiqatçılar üçün həm qlobal, həm də lokal coğrafiyalarda ən müxtəlif: ictimai, siyasi, sosial, mədəni-mənəvi, tarixi, hüquqi, süni intellekt, ekoloji etika və digər mövzularda müzakirələr və fikir mübadiləsi aparmaq üçün platforma olub. İki simpozium və 89 sessiyada məruzələr dinlənilib.

Azərbaycanı təmsil edən T.Allahyarova iqlim və ekologiya ilə bağlı sessiyada ayrıca məruzəçi, habelə iki "dəyirmi masa"da təşkilatçı və çıxışçı olub. Konqresin "14. Ətraf Mühit Fəlsəfəsi və Davamlı İnkişaf" adlı sessiyasında T.Allahyarovanın "Qlobal iqlim böhranının sosial və fəlsəfi əsasları" mövzusunda məruzəsi təqdim edilib. STM-nin təşəbbüsü ilə Konqres çərçivəsində "COP29 konfransının Azərbaycanda ekoloji fəlsəfənin və davamlı inkişafın daha da təkmilləşdirilməsinə gözlənilən müsbət təsiri" mövzusunda "dəyirmi masa" keçirilib. İştirakçılar ölkəmizin bu sahədə qlobal təşəbbüsləri ilə bağlı məlumatlandırılıblar.



"Dəyirmi masa"ya iqlim və ətraf mühit profilli tədqiqatçılar Noriko Haşimoto (Yaponiya), Nikola Zengiaro (İtaliya), İrene Bugallo (Argentina), Karen Joisten (Almaniya), Joisten Renner Kim (Kanada), Angela Miçelis (Italiya), Trung Do (Vyetnam), Hans Jonas Jelson Oliviera (Braziliya), habelə Azərbaycan da daxil olmaqla, türk dövlətlərini təmsil edən tədqiqatçılar qatılıblar.

T.Allahyarova "Türk xalqlarının fəlsəfi fikir tarixinin öyrənilməsinə metodoloji yanaşmalar: Türk sivilizasiyasının fəlsəfi irsinin özünəməxsusluğu məsələləri, problemlər, bəzi təkliflər" mövzusunda təqdimatla çıxış edib.

Bundan əlavə, "dəyirmi masa"da "Dekolonizasiya və xalqların irsi", "Afrika qitəsinin ictimai-siyasi fikir, mənəvi irsi, Qərb dünyasının kolonializm-müstəmləkəçilik dövründə tətbiq edilən birtərəfli yanaşmalar, bu xalqların "düşüncəsinin geri qalması və onların modernləşdirilərək inkişaf etdirilməsi", avropamərkəzçilik və kolonializm mövzularında da məruzələr dinlənilib.

"Dəyirmi masa"da A.Rettova ilə "Dekolonizasiya və dünya xalqlarının sosial-fəlsəfi irsinə avropamərkəzçi yanaşmanın nəticələri" mövzusunda aparılan ayrıca müzakirədə Azərbaycanın BMT səviyyəsində dekolonizasiya probleminin həllinə verdiyi töhfələr, Bakı Təşəbbüs Qrupunun təsis edilməsi və onun tarixi fəaliyyəti ilə bağlı məlumat verilib.

# Afrikalı ekspertlər iqlim dəyişikliyi ilə mübarizənin ədalətli maliyyələşdirilməsinə çağırış ediblər

Afrikadan olan iqlim ekspertləri noyabrda Bakıda keçiriləcək COP29 iqlim konfransında gündəmin əsasını təşkil edəcək maliyyə məsələlərini müzakirə etmək niyyətindədirlər. "Report" xəbər verir ki, bu barədə "EnviroNews Nigeria" jurnalı yazır.

Bu gün Keniyanın paytaxtı Nayrobidə iqlim məsələləri üzrə Afrika danışıqçılar qrupunun iclası başlayır. Toplantı avqustun 16-da başa çatacaq.

Tədbir ərəfəsində keçirilən məşvərət görüşündə ekspertlər Afrika ölkələri üçün iqlim maliyyəsinin formalaşdırılması ilə bağlı mühüm məsələləri müzakirə ediblər. Ekspertlər vurğulayıblar ki, inkişaf etmiş ölkələr artan ehtiyac və prioritetlər, adaptasiya, təsirlərin yumşaldılması, ədalətli enerji keçidinin təmin edilməsi, eləcə də itki və ziyanın ödənilməsi zərurəti nəzərə alınmaqla 2030-cu ilə qədər inkişaf etməkdə olan ölkələrə ən azı 5,9 trilyon ABŞ dolları vəsait ayırmalıdırlar.

Mütəxəssislər həmçinin inkişaf etmiş ölkələri töhfələr və donorlar haqqında müzakirələrlə builki iqlim danışıqlarını pozmamağa və iqlim fəaliyyətini maliyyələşdirmək üçün Paris Sazişi çərçivəsində öz öhdəliklərinə diqqət yetirməyə çağırıblar.

İqlim üzrə ekspert Samson Mbeve qeyd edib ki, inkişaf etməkdə olan ölkələrin ehtiyacları və prioritetləri nəzərə alınmaqla İqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət hədəfi (NCQG) borc alətlərindən imtina etməlidir.

"İnkişaf etməkdə olan ölkələrin əsasən adaptasiya üçün qrantlara ciddi ehtiyacı var, istənilən növ kreditlər daha yüksək dərəcədə güzəşt tələb edəcək, çünki bir çox inkişaf etməkdə olan ölkələr artıq böyük borclarla üz-üzədir, iqlim maliyyəsi vasitəsilə borcların artırılması vəziyyəti daha da ağırlaşdıra bilər. Biz həm də yadda saxlamalıyıq ki, inkişaf etmiş ölkələrin iqlim dəyişikliyindən ən çox zərər çəkənlərə kömək etmək öhdəliyi var. NCQG əlavə maliyyə yükü olmadan qlobal səylərin dəstəklənməsinə yönəlmiş ədalətli və davamlı həllər üzərində cəmləşməlidir, - o qeyd edib.

# *Bakının mozaik keçmişi:* tarix fonunda parlaq aksentlər

SSRİ dövründə mozaika şəhərlərin memarlıq görünüşünün formalaşmasında mühüm rol oynayıb. O, sovet memarlığının tərkib hissəsi olmaqla, ictimai binaların, mədəniyyət müəssisələrinin və hətta yaşayış binalarının fasadlarını bəzəyirdi.







Parlaq və rəngarəng mozaikalar yoldan keçənlərin diqqətini çəkib, onların əhvali-ruhiyyəsinə müsbət təsir edib. Onlardan sovet xalqının nailiyyətlərini və mühüm tarixi hadisələri əks etdirən monumental pannolar yaratmaq üçün istifadə olunurdu. Mədəniyyət saraylarının, kinoteatrların, məktəb və uşaq bağçalarının, fabriklərin və digər binaların fasadlarında mozaika kompozisiyalarını görmək olardı. Mozaika həm də metro stansiyalarının dizaynında mühüm rol oynayıb, özünəməxsus ab-hava yaradıb və yeraltı memarlığın möhtəşəmliyini vurğulayıb. Çoxlu sayda mozaika pannoları, həmçinin idman komplekslərini, stadionları və sağlamlıq mərkəzlərini bəzəyərək, vətəndaşları sağlam həyat tərzinə ruhlandırırdı. Sovet mozaikası dövlətin ideallarını və istəklərini əks etdirən dövrün simvoluna çevrilmişdi. O, təkcə bəzək elementi deyil, həm də təbliğat, ictimai şüur və vətənpərvərlik hisslərinin formalaşdırılması vasitəsi idi.

AZƏRTAC xəbər verir ki, ən parlaq və az tanınan mozaikalardan biri də Binəqədi rayonunda yerləşir. Bu əsər 1980-ci illərdə Azərbaycanın Xalq rəssamı Oqtay Şıxəliyev tərəfindən yaradılıb. Mozaikanı digər istedadlı rəssam Əmirxan Məmmədvəliyev yığıb.

Panno şəklində təqdim edilən bu əzəmətli mozaika köhnə Bakının memarlıq abidələrini təsvir edir. Onların arasında şəhərin zəngin tarixi irsini əks etdirən Qala divarı, Şirvanşahlar sarayı, Qız qalası, məscid və minarələr xüsusilə seçilir. Bu tarixi binalar keçmişin və günümüzün harmonik birləşməsini simvolizə edən müasir binaların təsvirləri ilə üst-üstə düşür. Mozaika üzərində xüsusi ləzzət verən və şəhərin qədim adət-ənənələrini xatırladan faytonu da görə bilərsiniz.

Bu mozaika heç də bütöv bir şəkil deyil. Plastik elementlərlə hazırlanıb ki, bu da onu naxışlı edir və hər bir detalı canlandırır. Relyef elementləri sayəsində təsvirlər həcm və dərinlik kəsb edərək, hərəkət və dinamika təəssüratı yaradır. Mozaikanın parlaq və rəngarəng fraqmentləri diqqətə çarpır, sizi ona uzun müddət baxmağa və yeni detallar tapmağa sövq edir. Mozaika insanları köhnə Bakının ab-havasına qərq etməklə səmimi nostalgiya hissləri və heyranlıq doğurur. Hər bir element diqqətlə işlənib, memarlıq abidələrinin əzəmətini və gözəlliyini çatdırır. Rənglər və fakturalar təsvir olunan obyektlərin tarixi və mədəni əhəmiyyətini vurğulayır. Beləliklə, bu mozaika sadəcə dekorativ bəzək deyil, zəngin keçmişin canlı xatirəsidir və köhnə Bakının gözəlliyini və bənzərsizliyini xatırladır.

Bədii və tarixi əhəmiyyətinə görə sovet mozaikaları mühüm mədəni irs olaraq qalır, həmçinin sənət və memarlığın unikal sintezini təmsil edir. Bu gün SSRİ mozaikaları keçmişin xatirəsini qoruyan və yeni nəsilləri ruhlandıran tədqiqat və bərpa obyektidir. Bu sənət əsərləri təkcə şəhərləri bəzəmir, həm də yarandığı dövrün tarixini və mədəniyyətini qoruyub saxlayır. Hər bir mozaika bütöv bir ölkənin sosial ideallarının, əmək nailiyyətlərinin və yaradıcılıq axtarışlarının əksidir. Bu nadir abidələrin qorunub saxlanılması gələcək nəsillərin incəsənətlə bağlı ictimai şüurunu formalaşdırmaq və tarixə təsir göstərə biləcəyinə ruhlandırmaq, habelə keçmişi öyrətmək baxımından vacibdir.

# "Google" və "Microsoft"un sərf etdiyi elektrik enerjisi bir neçə ölkənin istehlakını ötür

"Google", "Apple" və "Microsoft" kimi şirkətlər də daxil olmaqla, 10 ən dəyərli texnologiya şirkətləri bazar dəyərlərilə 2023-cü ildə ÜDM-i 17,6 trilyon dollar olan Çini geridə qoyublar. AZƏRTAC "Bloomberg"ə istinadla xəbər verir ki, bununla yanaşı nəhəng texnologiya şirkətləri olan "Google" və "Microsoft" Nigeriya, İordaniya, İslandiya, Şimali Koreya və Qana kimi ölkələrdən daha çox elektrik enerjisi istehlak edirlər.



Belə ki, "Google" və "Microsoft" ayrı-ayrılıqda ildə 24 teravatt-saat elektrik enerjisi istehlak edirlər ki, bu da 11 milyon əhalisi olan İordaniya (20 teravatt-saat), 400 min əhalisi olan İslandiya (19 teravatt-saat), 34 milyon əhalisi olan Qana (19 teravatt-saat) və 26 milyon əhalisi olan Şimali Koreya (18 teravatt-saat) kimi ölkələrin istehlak etdiyi elektrik enerjisindən daha çoxu deməkdir.

İki texnologiya şirkətinin ümumi istehlakı 48 teravatt-saata uyğun gəlir və bunu deməyə əsas verir ki, onlar əhalisi 223 milyon olan Nigeriyadan (31 teravatt-saat) daha çox elektrik enerjisi istehlak edirlər. Siyahıdakı olan digər texnologiya şirkətləri - "Meta" 12 teravatt-saat, "Apple" 2 teravatt-saat, "Nvidia" 0,5 teravatt-saat elektrik enerjisi istehlak edirlər.

Məlumata görə, texnoloji şirkətlərin elektrik enerjisi istehlakının böyük hissəsi sahib olduqları məlumat mərkəzləri ilə bağlıdır.

"Google" tərəfindən dərc edilən 2024-cü il hesabatına görə, məlumat mərkəzlərinin elektrik enerjisindən istifadəsi 2023-cü ildə 17 faiz artıb. Şirkətin məlumat mərkəzi qlobal miqyasda məlumat mərkəzləri tərəfindən istifadə edilən elektrik istehlakının 10 faizini təşkil edir.

"Microsoft" isə son 4 ildə süni intellekt sahəsindəki inkişaflarla böyük sıçrayış edib. 2020-ci ildə 11 teravatt-saat elektrik enerjisi istehlak edən şirkət 4 il ərzində elektrik istehlakını iki dəfədən çox artıraraq 24 teravatt-saata çatıb.



# İQTİSADİYYAT



# Təbiətin səxavəti, dövlətin iradəsi, neftçinin hünəri ilə...

## "Biz bu sərvəti... cəmiyyətə yönəltmişik, inklüziv cəmiyyət qura bilmişik"

**Xəzərin Azərbaycan sektorundakı neft və qaz yataqları dünyanın ən böyük və zəngin karbohidrogen mənbələri sırasına daxildir. Nəhəng "Şahdəniz" qaz-kondensat yatağının iki mərhələdə işlənməsi bunu aydın göstərir. "Azəri"nin qoynundakı mərkəzi, qərbi və şərqi hissələrin isə hərəsi ayrılıqda sanballı bir neft yatağıdır. "Günəşli" də böyükdür. Dayazsulu və dərinsulu "Günəşli"miz var.**

Məlum olduğu kimi, bu gün dünyanın müxtəlif guşələrində bəzi dairələr neftlə və qazla zəngin ölkələrin üstünə az qala "hücum çəkirlər" ki, atmosferi çirkləndirir, ekologiyanı korlayırsınız. Azərbaycan da karbohidrogen ehtiyatları hasil və ixrac edən ölkə olduğundan Prezident İlham Əliyev bir sıra mötəbər tədbirlərdə həmin dairələrə tutarlı cavab verib. "Bizim işimizə bu ehtiyatların mövcudluğu əsasında deyil, onlardan hansı şəkildə istifadə etdiyimizə görə qiymət verilməlidir", deyib.

Bu il aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış edərkən dövlətimizin başçısı diqqətə çatdırıb ki, bu, Tanrıdan verilən vəsilədir. Biz həmin ehtiyatların ölkənin inkişafına, yoxsulluğun və işsizliyin azaldılmasına, "yaşıl gündəlik"lə bağlı tutduğumuz hədəflərə yönəldilməsinə görə dəyərləndirilməliyik. Prezidentimiz iyunun 4-də Bakı Enerji Həftəsinin açılış mərasimində də vurğulayıb ki, bunu bizə Allah yetirib. Biz bu sərvəti müxtəlif vasitələrlə cəmiyyətə yönəltmişik, inklüziv cəmiyyət qura bilmişik.

Lakin taleyin bu səxavətli bəxşişini torpağın təkindən, dənizin dibindən üzə çıxarmaq asan məsələ deyil. Bu missiyanı isə Azərbaycan neftçisi hünərlə və fədakarlıqla yerinə yetirir. Əlbəttə ki, dövlət onun işinə böyük dəstək və əməyinə yüksək dəyər verir. Prezidentimiz bunu belə vurğulayır: "Neftçi Azərbaycanda çox şərəfli və hörmətli peşədir, həmişə belə olub, bu gün də belədir. Mən Azərbaycan neftçilərinin Azərbaycanın ümumi inkişafında rolunu çox yüksək qiymətləndirirəm."

"Günəşli"nin tarixinə nəzər salsaq, deyilənlərin əyani təsdiqini görərik. Neft üzrə ekspert İlham Şabanın araşdırmalarına əsaslanaraq deyək ki, struktur 1957-ci ildə seysmik kəşfiyyatın "əks olunan dalğa üsulu" ilə aşkar edilib. Yataq 1979-cu ildə kəşf olunub. O, "Neft Daşları" yatağından 12 kilometr cənub-şərqə doğru yerləşir. 1977-ci ildə "Günəşli" sahəsində Xəzər dənizində ilk dərindayaqlı stasionar platformanın quraşdırılması başa çatıb. Platforma dənizin 84 metr dərinliyində quraşdırılıb. Burada ilk quyunu qazma ustası, Sosialist Əməyi Qəhrəmanı İsrafil Hüseynovun briqadası qazıb. 1979-cu il avqustun 28-də 3455-3423 metr intervalda Balaxanı layının X horizontundan gündəlik 200 tondan çox debitlə neft alınıb.

Sovet dövründə bu yataq "28 Aprel" adlanırdı, sonra ona "28 May" adı verildi. 1992-ci ildən isə yataq "Günəşli" adı ilə tanınır. Hazırda bu yataq "28 May" NQÇİ tərəfindən istismar olunur və idarənin əldə etdiyi hasilatın əksər hissəsi onun payına düşür. Söhbət əlbəttə, "Günəşli"nin dayaz hissəsindən gedir.

Qeyd edək ki, "Günəşli"nin işlənməsi və özünü doğrultması Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə olmuşdu. Xəzərdəki daha dərin laylara nüfuz edilməsi Ümummilli Liderin böyük arzularından idi və bunun üçün mümkün olanı həyata keçirirdi. Qocaman neftçilərdən biri danışır ki, Neft Daşlarına səfərlərinin birində Ulu Öndər estakadada işçilərlə səmimi söhbət etdiyi zaman birdən onun baxışlarının uzaqlara dikildiyini görüblər. "İndi bax, oraları öyrənmək, kəşf etmək lazımdır, daha dərin qatlardan neft çıxarmaq lazımdır,"- Heydər Əliyev əlini dənizlə üfüqün birləşdiyi yerə uzadaraq belə dedi.

Bu, həmin yerlər idi ki, orada "Azəri" vardı, "Çıraq", "Günəşli"nin daha dərin hissələri vardı…

Ümummilli Lider bu arzuları xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələndən sonra gerçəkləşdirdi. Azərbaycanın yeni neft strategiyasını həyata keçirdi, "Əsrin müqaviləsi" ilə təkcə neft sənayesinə deyil, bütün ölkəyə yeni yüksəliş gətirdi. "Dərinsulu Günəşli"nin işlənməsi də məhz bu layihənin - "Azəri-Çıraq-Günəşli"nin (AÇG), yəni "Əsrin müqaviləsi"nin tərkib hissəsi oldu.

1997-ci ilin noyabrında "Çıraq"dan, 2005-ci ilin fevralında isə "Azəri"dən neft alındı. Növbə "Dərinsulu Günəşli"nin idi. Yataqda quraşdırılacaq platforma ölkə daxilində inşa edilirdi. AÇG-dəki digər işlər kimi qurğuların tikintisi də Prezident İlham Əliyevin şəxsi nəzarətində idi.

Əslində, "Dərinsulu Günəşli" üçün iki platforma tikilirdi. Biri qazma, hasilat və yaşayış platforması idi, digəri isə kompressiya və suvurma işlərini yerinə yetirmək üçün nəzərdə tutulmuşdu. Quruda tikintisi tamamlandıqdan sonra qurğular dənizə, AÇG müqavilə sahəsinə aparıldı və öz daimi yerində quraşdırılaraq bir-birinə körpü vasitəsilə birləşdirildi. Bu, "Əsrin müqaviləsi"nin həyata keçirilməsində mühüm mərhələlərdən biri idi.

2008-ci il aprelin 22-də "Dərinsulu Günəşli" platformasından karbohidrogenlərin hasilatına başlandı. "Dərinsulu Günəşli" AÇG layihəsi çərçivəsində işlənən son yataq olduğu üçün bu hadisə, əslində, böyük qələbə idi.

Platforma 16 ildən çoxdur təhlükəsiz, tələblərə cavab verən və etibarlı şəkildə fəaliyyət göstərir. Bu, qurğunun fəaliyyəti ilə bağlı dənizdə və quruda işləyən əməkdaşların böyük nailiyyətidir. Buna nail olmaq üçün həmin insanlar əməyin təhlükəsizliyi mədəniyyətində liderlik nümayiş etdiriblər.

Bu isə həm regional, həm də qlobal kontekstdə etalon göstəricilərdən biri sayılır.

Xatırladaq ki, hazırda AÇG-də iştirak payları belədir: BP (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31 faiz), "Ekvinor" (7,27 faiz), "EksonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGCVideş (2,31 faiz). AÇG-nin əməliyyatçısı olan BP-nin məlumatına görə, indi "Dərinsulu Günəşli"dən gündə orta hesabla 57 min barel neft hasil edilir. Əlbəttə, bu vaxta qədərki istismar dövründə hasilatın həcmi eyni olmayıb. Bəzi vaxtlarda qurğu bundan iki dəfə çox neft verib.

Cari ilin aprel ayında SOCAR-ın "Dərinsulu Günəşli" platformasının istismara verilməsinin 16-cı ildönümü münasibəti ilə hazırladığı videoçarxda bildirilir ki, ötən müddət ərzində buradan 638 milyon barel neft və 18,2 milyard kubmetr səmt qazı hasil edilib.

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkəmizin əsas gəlir mənbəyi "Azəri-Çıraq-Günəşli"dir. Bu baxımdan yanaşdıqda "Dərinsulu Günəşli"nin də töhfəsinin az olmadığını şərh etməyə ehtiyac qalmır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Özbəkistanla əmək, məşğulluq, sosial müdafiə sahələrində təcrübə mübadiləsi aparılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri ilə Özbəkistanın Məşğulluq və Yoxsulluğun Azaldılması Nazirliyi və Özbəkistan Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyinin nümayəndələri arasında videokonfrans formatında görüşlər keçirilib.**

Görüşlərdə son illər Azərbaycanda həyata keçirilən sosial islahatlar, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində atılan addımlar diqqətə çatdırılıb. DOST konsepsiyasının üstünlükləri, dövlət sosial xidmətlərinin elektronlaşdırılması sahəsində əldə olunan nailiyyətlər qeyd olunub.

E-sosial.az portalı, "Əmək və Məşğulluq" altsistemi, DOST Çağrı Mərkəzi, aktiv məşğulluq proqramları, özünüməşğulluq proqramı, işsiz şəxslərin peşə hazırlığının təşkili sahəsində aparılan işlər barədə məlumat verilib.

Ölkəmizin sosial xidmətlər sistemi, həssas qruplarla bağlı icra olunan layihələr, əlilliyin qiymətləndirilməsi və reabilitasiya sahələrində aparılan islahatlar, əlilliyi olan şəxslərin reabilitasiya xidmətləri və vasitələri ilə təminatı istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Eyni zamanda Özbəkistanda aparılan sosial islahatlar, əmək, məşğulluq, sosial müdafiə sahələrində görülən işlərə dair məlumatlar verilib. Qeyd olunan sahələrdə təcrübə mübadiləsi aparılıb, gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

# 7 ayda 233,1 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən yanvar-iyul aylarında 233,1 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub.**

Onlardan 99 min nəfəri münasib işlərlə təmin edilib, 3,2 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb olunub.

Qeyd olunan dövrdə agentlik tərəfindən 10,1 min işsiz şəxs üçün peşə hazırlığı kursları təşkil edilib, 120,8 min şəxsə isə peşəyönümü xidmətlər göstərilib.

# Neft bahalaşıb



**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neft bahalaşıb.**

Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,49 dollar artaraq 81,18 dollar olub. Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,53 dollar artaraq 78,88 dollar təşkil edib.

# Taxıl biçini yekunlaşır

## Sahələrdən 2,9 milyon tondan çox məhsul toplanmışdır

**Dövlət Statistika Komitəsi xəbər verir ki, dənli və dənli paxlalı bitkilərin kütləvi biçini başa çatmaq üzrədir.**



Avqust ayının 13-nə olan operativ məlumata əsasən, payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilər üzrə biçilməsi nəzərdə tutulmuş 995,7 min hektar sahənin 979,3 min hektarı və yaxud 98,3 faizi biçilərək məhsulu yığılmışdır. Sahələrdən 2937,3 min ton məhsul toplanmış, məhsuldarlıq 30,0 sentnerə bərabər olmuşdur. Məhsulun 1680,3 min tonunu və yaxud 57,2 faizini buğda, 1227,4 min tonunu (41,8 faizini) arpa, 29,6 min tonunu (1,0 faizini) isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil etmişdir.

Respublikanın 26 rayonunda dənli və dənli paxlalı (qarğıdalısız) bitkilərin biçini tam başa çatmışdır. Naxçıvan Muxtar Respublikasında və 29 rayonda biçilməsi nəzərdə tutulan sahənin 90,0 faizindən çoxu biçilmiş, digərlərində isə biçinin aparılması səviyyəsi 90,0 faizdən aşağıdır.

Ən yüksək məhsuldarlıq Hacıqabul (1 hektardan 51,4 sentner), Ağcabədi (müvafiq olaraq 44,4), Sabirabad (43,4), Salyan (42,0), Bərdə (41,6), Ağdam (41,5), Saatlı (41,0), İmişli (39,6), Samux (37,6), Zaqatala (36,1) və Beyləqan (35,9) rayonlarında olmuşdur. Dənli və dənli paxlalı (qarğıdalısız) bitkiçilik məhsullarının digər rayonlara nisbətən daha çox istehsalı Cəlilabad (224,7 min ton), Şəki (152,7 min ton), Ağcabədi (144,9 min ton), Füzuli (130,7 min ton), Kürdəmir (125,2 min ton), Ağsu (108,2 min ton), Hacıqabul (106,2 min ton) və İsmayıllı (97,0 min ton) rayonlarında müşahidə edilmişdir.

# Ağstafa şəhərinin küçələri yenidən qurulur



**Son illər Ağstafada yol infrastrukturunun yenilənməsi istiqamətində xeyli iş görülmüşdür. Əhalinin gediş-gəlişini rahat təmin edən bu işlər indi də davam edir.**

Hazırda Ağstafa şəhərinin bir sıra küçələrində əsaslı təmir və quruculuq işləri aparılır. Bu yaxınlarda şəhərin daha bir küçəsinə yeni asfalt örtüyü salınmış, ərazinin elektrik təsərrüfatı yenidən qurulmuş, sakinlər yüksəktexnologiyalı sürətli internetlə təmin edilmişlər. Başqa bir küçədə isə avtomobil yolunun sıradan çıxmış hissəsinə asfalt döşənib. Hüseyn Arif küçəsi ilə Ağstafa-Poylu avtomobil yolunu birləşdirən yol da əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Hazırda Ağstafa şəhərinin yol infrastrukturunda aparılan yenidənqurma işləri Heydər Əliyev prospektində davam edir. Yolboyu piyadaların rahat gediş-gəlişini təmin etmək üçün səkiyə üzlük daşları döşənir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İqtisadi inkişafda kiçik biznesin böyük əhəmiyyəti var

**KOBİA yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun fəaliyyətinin daha çevik təşkili üçün operativ müzakirə platformalarının və tematik işçi qruplarının yaradılması nəzərdə tutulur.**

Müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupunun ilk iclası keçirilib.

Koordinasiya Qrupunun sədri, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev ölkədə sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi tədbirləri barədə məlumat verib. Qeyd olunub ki, qarşıdakı ortamüddətli dövr üçün hədəflərə nail olunmasında fəaliyyətdə olan bizneslərin 99 faizdən çox hissəsini təşkil edən KOB subyektləri əhəmiyyətli rol oynayır. KOB sektorunun dayanıqlığının artırılması, məhsuldarlığın yüksəldilməsi, KOB-ların böyüməsinin dəstəklənməsi, qarşılaşdıqları maneələrin operativ həlli, hüquqi və tənzimləyici çərçivələrin yeni reallıqlara uyğun təkmilləşdirilməsi, rəqəmsallaşmanın və "yaşıl yanaşma"ların tətbiqinin sürətləndirilməsi, yüksək əlavə dəyər yaradan sahələrdə KOB subyektlərinin sayının artırılması başlıca hədəflər sırasındadır. Bu hədəflərə nail olunmasında, o cümlədən KOB-ların inkişafının daha geniş dəstəklənməsi, aktual məsələlərin çevik həlli üçün aidiyyəti dövlət qurumlarının birgə fəaliyyəti vacibdir. Koordinasiya Qrupu bu baxımdan əlverişli platforma olacaqdır.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Koordinasiya Qrupunun fəaliyyətinin təşkili ilə bağlı məlumat verib. Bildirilib ki, KOB-lara dəstək məqsədilə KOBİA fəaliyyətini ikitərəfli və çoxtərəfli layihə və təşəbbüslər, sahəvi görüşlər və ictimai müzakirə platformaları vasitəsilə maraqlı tərəflərin sektordakı proseslərə yaxından cəlb edilməsi üzərində qurub. Koordinasiya Qrupunun yaradılması ilə əlaqələndirmə və iştirakçılıq məsələləri məzmun və keyfiyyət baxımından yeni, daha strateji mərhələyə keçib. Qarşıdakı dövrdə qrupun fəaliyyətinin daha çevik təşkili məqsədilə xüsusi məsələlər üzrə bir neçə qurumun nümayəndələrinin iştirakı ilə operativ müzakirə platformalarının və ya tematik işçi qruplarının yaradılması hədəflənir. KOB sektorunun inkişafına yönəldilmiş fəaliyyətin ölkəmizdə biznes mühitinin daha da təkmilləşməsinə, eləcə də beynəlxalq reytinqlər üzrə mövqeyinin güclənməsinə əlavə dəstək verə biləcəyi nəzərə alınaraq, Koordinasiya Qrupunda müzakirə ediləcək məsələlər və təşəbbüslər Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasına da təqdim ediləcək.

İclasda biznesin maliyyə yükünə dair mövcud vəziyyət və hədəflərə, KOB evlərində G2B xidmətlərin səmərəli təşkilinə, yeni yaradılacaq KOB evləri üzrə dövlət qurumları ilə fəaliyyətin koordinasiyasına dair təqdimatlar keçirilib, müzakirələr aparılıb və dövlət qurumlarının təklifləri dinlənilib.

Koordinasiya Qrupunun üzvləri, həmçinin "Bakı KOB evi"ndə sahibkarlara G2B və B2B xidmətlərin göstərilməsi üçün yaradılmış şəraitlə də tanış olublar.

Qeyd edək ki, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə Koordinasiya Qrupunun yaradılması 2 dekabr 2022-ci il tarixli "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanunla təsbit edilib. Nazirlər Kabinetinin 2024-cü il 13 yanvar tarixli qərarı ilə isə KOBİA yanında daimi fəaliyyət göstərən Koordinasiya Qrupu yaradılıb və əsasnaməsi təsdiq olunub. Koordinasiya Qrupu KOB-ların inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi, KOB evlərində Koordinasiya Qrupunda təmsil olun dövlət orqanları ilə KOBİA arasında səmərəli əlaqələndirmənin və operativliyin təmin edilməsi məqsədilə Agentlik yanında yaradılmış dövlət orqanlarının nümayəndələrindən ibarət ictimai əsaslarla daimi fəaliyyət göstərən kollegial orqandır. Koordinasiya Qrupunda 30-a yaxın dövlət qurumunun nümayəndəsi təmsil olunur.

# 6 ayda ölkədə 45,4 min yeni iş yerləri açılıb

**Bu dövrdə iş yerlərinin 95,1 faizi qeyri-dövlət sektorunda yaradılıb.**

Yeni açılmış iş yerlərinin 79,4 faizi Bakı şəhərinin, 1,7 faizi Naxçıvan Muxtar Respublikasının, 18,9 faizi digər regionların, o cümlədən 4,7 faizi Abşeron-Xızı, 2,1 faizi Gəncə-Daşkəsən, 2,1 faizi Lənkəran-Astara, 1,9 faizi Quba-Xaçmaz, 1,8 faizi Şirvan-Salyan, 1,3 faizi Qazax-Tovuz, 1,2 faizi Qarabağ, 1,2 faizi Şəki-Zaqatala, 1,0 faizi Şərqi Zəngəzur, 0,9 faizi Mərkəzi Aran, 0,4 faizi Mil-Muğan, 0,3 faizi isə Dağlıq Şirvan iqtisadi rayonlarının payına düşüb.

Yeni açılmış iş yerlərinin 10,6 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 88,4 faizi mövcud müəssisə və təşkilatlarda, 0,3 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,7 faizi isə digər tədbirlər üzrə yaradılıb. Hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 26,4 faizi tikinti, 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,8 faizi emal sənayesi, 7,9 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 7,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 7,1 faizi peşə, elmi və texniki fəaliyyət, 4,5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 3,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 2,5 faizi digər sahələrdə xidmətlərin göstərilməsi, 2,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi informasiya və rabitə, 2,2 faizi təhsil, 7,0 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılıb.



# Mədəniyyət



● Milli-mədəni irsimiz

## Abidələrdə yaşayan böyük memar

**Azərbaycan xalqının qədim milli-mədəni irsini yaşadan, dünyaya tanıdan şəxsiyyətlərdən biri də Əcəmi Əbubəkr oğlu Naxçıvanidir. Mənşəcə Azərbaycan türkü olan Əcəmi Naxçıvani yaradıcı ömrünü Azərbaycan Atabəylər dövlətinin ərazisində yaşamışdır. Bu dövlətin mərkəz şəhərlərindən biri də Naxçıvan idi.**





Məxəzlərin verdiyi məlumatlarda deyildiyi kimi, Azərbaycanın intibah dövrü adlandırılan XI və XII əsrlərdə şəhərlər böyüyür, saraylar, məscidlər, müdafiə və xatirə tikililəri qurulurdü. Sənətkarlıq, elm, incəsənət və poeziya inkişaf edirdi. Bu dövrdə Qətran Təbrizi, Bəhmənyar əl-Azərbaycani, Xətib Təbrizi, Nizami Gəncəvi, Xaqani Şirvani, Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi və digərləri kimi bir sıra dahi şəxsiyyətlər yaşayıb-yaratmışlar. Yalnız Şərqdə deyil, həm də Qərb dünyasında yaxşı tanınan bu kəhkəşan ulduzları arasında ən çox işıq saçanlarından biri də Əcəmi Naxçıvani olmuşdur. O, bir çox dəyərli memarlıq əsərlərinin müəllifi kimi dünya şöhrəti qazanmış, Naxçıvan memarlıq məktəbinin banisi kimi tanınmışdır.

Sənətşünas, Əməkdar elm xadimi, professor Əbdülvahab Salamzadə onun haqqında yazır: "...Əcəmi Naxçıvani öz dövründə tayı-bərabəri olmamış sənətkarlardandır. Təsadüfi deyil ki, XIII əsr mənbələri onun "şeyxül-mühəndisin" (mühəndislər başçısı) rütbəsi daşıdığından xəbər verir".

Böyük sənətkarın günümüzə gəlib çatan Möminə Xatun türbəsi, Yusif Küseyir oğlu türbəsi və Cümə məscidi kimi inciləri onun sözün əsl mənasında dünyanın ən nəhəng sənətkarları sırasında yer aldığının göstəricisidir.

Xalq arasında Atababa Günbəzi adlanan Yusif Küseyir oğlu türbəsinin məzar hissəsi yerin altındadır. Yerüstü qülləvari hissə piramida formalı səkkizguşəli çadır şəklində işlənmişdir. Məqbərənin çölə baxan tərəfi kərpic bloklarla hörülmüş naxışlarla bəzədilmişdir.

Abidənin giriş hissəsində kufi xətti ilə yazılıb: "Bu, şərəfli dinimizin məşhur rəisi, İslamın gözəlliyi, şeyxlər başçısı Hacı Yusif ibn Küseyrin məqbərəsidir. Şəvval ayı yeddinci, əllinci və beş yüzüncü il (557/1162-ci il). "Məqbərənin üzərində kufi xətti ilə Qurandan dekorativ ayələr yazılmışdır. Girişin sol tərəfində memarın adı həkk olunmuşdur: Əcəmi ibn Əbubəkr Naxçıvani.

Sənətşünasların fikrincə, Yaxın Şərqin bir çox memarlarının yaradıcılığına Əcəmi Naxçıvaninin böyük təsiri olmuşdur. Onun yaratdığı nadir arxitektura əsərləri əsrlər keçməsinə baxmayaraq, böyük estetik həzz mənbəyi kimi sənətkarın yaradıcı dühasının gücünü əks elətdirir. Bu əsərlər sübut edir ki, Əcəminin ölməz irsi haqlı olaraq, memarlıq sənətinin əbədi nümunələrindən sayılır. Yenidən doğulmuş bu sənət abidələri belə bir fikrə gəlməyə əsas verir ki, hələ Qərb dünyasında arxitektura sənəti anonim səciyyə daşıyan bir dövrdə Əcəmi bir çox memarlıq incilərinin müəllifi kimi müasirləri sırasında parlaq və təkrarolunmaz yaradıcı simaya malik böyük sənətkar, bədii və mühəndis təfəkkürün nəhəngi kimi tanınmışdır.

Görünən odur ki, tarix öz qoynunda Əcəminin həyatı haqda onun ölməz əsərlərindən başqa heç nə saxlamayıb. Böyük memar bunu qabaqcadan gördüyündən öz şah əsərinin - İl-Dənizin xanımı Möminə Xatun türbəsi üzərində belə yazmışdı: "Biz gedəriyik. Dünya əbədi qalandır. Biz gedəcəyik, dünya qalacaq. Biz ölərik - bu, bizdən xatirə qalar. İlahi, bəd nəzərdən uzaq elə..."

Bəli, müsəlman Şərqində dünyanın ən qədim şəhərlərindən olan Naxçıvanda orta əsrlərin böyük memarı Əcəmi Naxçıvaninin layihəsi əsasında nəhəng bir ərazidə İl-Dənizlərin Sarayı, Cümə məscidi, Xatirə abidələri, mədrəsə, karvansara və digər tikililər qurulmuşdur.

Əcəmi Naxçıvaninin yaradıcılığı əsrlər boyunca Azərbaycanın və digər ölkələrin bir çox memarları üçün ilham və təqlid mənbəyi olmuşdur. Hətta Əcəmidən 300 il sonra yaşamış Böyük Türkiyə memarı Memar Sinanın əsərlərində də tədqiqatçılar dahi ustadın təsirini qeyd edirlər.

Görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin 900 illiyi 2024-2025-ci illər ərzində UNESCO çərçivəsində qeyd olunacaq yubileylər siyahısına daxil edilib. Xalqımız və dövlətimiz dünyaşöhrətli memar Əcəmi Əbubəkir oğlu Naxçıvaninin xatirəsini daim əziz tutur. Onun Bakıda, eləcə də bölgələrdə yubileyləri təntənə ilə qeyd edilir. Təsadüfi deyil ki, neçə illərdir Bakı Metropoliteninin ən böyük dayanacaqlarından biri "Memar Əcəmi" adlanır. Habelə paytaxtın Binəqədi rayonu, 8-ci mikrorayonunda yaraşıqlı küçələrdən biri böyük şəxsiyyətin adını daşıyır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Söz sənətini yaşadanlar

## Ədəbiyyatımızı zənginləşdirməyə çalışırdı

**Azərbaycan ədəbiyyatında hər bir yazıçının, hər bir şairin öz yeri, öz yaradıcılığı, öz dəst-xətti var. Müxtəlif dövrlərdə, fərqli zamanlarda yaşasalar da, onların əsas məqsədləri yeni əsərləri ilə ədəbiyyatımızı daha da zənginləşdirmək və inkişaf etdirmək olub.**



Ədəbiyyatımızdakı unudulmaz, əvəzsiz və bənzərsiz simalardan biri də əsərləri ilə yaddaşlarda dərin izlər qoymuş Qasım bəy Zakirdir. Onun satiraları Azərbaycan ədəbiyyatında realizmin formalaşması və inkişafında əvəzsiz rol oynamışdır. Şairin əlimizə gəlib çatmış bu gün də maraqla oxunan satiralarında əsasən çar hakimləri və onların müstəmləkəçi qanun və qaydaları qamçılanırdı. Bu əsərlərin əsas qayəsi ifşaçılıq, kəskin tənqid və kinayəli gülüş idi. Məhz elə buna görə də bu satiraların yazıldığı zamanın üstündən illər, əsrlər karvanını sürüb keçsə də, maraqla qarşılanır, sevilə-sevilə oxunur.

Qasım bəy Zakir Əlibəy oğlu 1784-cü ildə Şuşa şəhərində bəy ailəsində dünyaya göz açmışdır. Mollaxanada təhsil alan Zakir çalışqanlığı sayəsində müəllimlərindən ərəb və fars dillərini də öyrənmişdi. Gələcəyin böyük şairi, satiraçısı, maarifçisinin hələ kiçik yaşlarından Azərbaycanın böyük klassikləri M.Füzulinin, M.P.Vaqifin yaradıcılığına böyük marağı olmuş, onların ədəbi irsini həvəslə oxumuş və öyrənmişdir. O, klassik şeir ənənələrini uğurla davam etdirərək lirik əsərlər yazmışdır. Xüsusi olaraq vurğulanmalıdır ki, şairin lirikası da Azərbaycan ədəbiyyatı tarixində önəmli yer tutur. Zakir lirik və epik əsərləri ilə özündən sonra zəngin bədii irs qoymuşdur. Poeziyamızı mövzu və ideya cəhətdən daha da zənginləşdirən bu şeirlərdə daha çox insan gözəlliyi və həqiqi aşiqlərin təmiz məhəbbəti nəzmə çəkilib. Həmin lirik şeirlər bu gün də bədii dəyərini itirməyib və heç vaxt da itirməyəcək. Çünki nə qədər ki həyat var, sevgi də olacaq, sevənlər də.

Satirası, lirik şeirləri ilə yanaşı, Qasım bəy Zakir XIX əsrin birinci yarısında formalaşmağa başlayan Azərbaycan tənqidi realizminin ilk sayılıb-seçilən nümayəndələrindən olmuşdur. Əsərlərində məzlum kütlələri öz məngənəsində sıxan hakim təbəqələrə, yerli bəylərə, mülkədarlara qarşı çıxmış və onları ifşa etmişdir. Şair əsərləri vasitəsilə oxucularına özünün ictimai fikirləri, arzu və istəklərini çatdırmış, günlərin birində zülmün bitəcəyini vurğulamışdır. Cəmiyyətdəki haqsızlıq, ədalətsizlik, qeyri-bərabər sosial həyat onu hər zaman düşündürmüş və hiddətləndirmişdir.

Qasım bəy Zakir həyatının xeyli hissəsini Qarabağ xanı Mehdiqulu xan tərəfindən ona bağışlanmış Xındırıstan kəndində keçirmişdir. İyirmi evdən ibarət sakini olan bu kəndin əkin yerləri və üzüm bağlarından gələn cüzi gəlirlə dolanan şair sadə bir ömür yaşamışdı. Görkəmli ədəbiyyatşünas, tədqiqatçı Firidun bəy Köçərli onun haqqında yazılmış xatirələrə əsaslanaraq, Zakiri "xoşsurət, xoşsima… uca qamətli… rəhmli və mürüvvətli bir adam" kimi səciyyələndirir, onun sadə, nəcib təbiətə malik insan olduğunu yazırdı. Zakirin yaradıcılığı ana dilimizin gözəlliyini, imkanlarını dolğun əks etdirdiyinə görə də bənzərsizdir. Bu xüsusiyyətinə görə Firudin bəy Köçərli Qasım bəy Zakiri "Vaqifdən sonra Azərbaycan bədii dilini daha da zənginləşdirən və incələşdirən sənətkar" kimi qiymətləndirmişdir.

Şairin yaradıcılığında mənzum hekayələr də mühüm yer tutur. Bu əsərlərin bir qismində məhəbbət, evlilik məsələlərindən danışılır, digər qismi isə tərbiyəvi əhəmiyyət daşıyır, bəzilərində isə satirik-tənqidi mahiyyət özünü qabarıq şəkildə göstərir. İctimai eyibləri, insan təbiətindəki qüsurları bir sıra hallarda üstüörtülü şəkildə əks etdirən şair maraqlı təmsillər də yazmışdır. Bu əsərlərdə o, zülm və zorakılığın əleyhinə çıxmış, hiylə və satqınlığı, ikiüzlülüyü pisləmişdir.

Zaman keçdikcə şairin dostları ilə yanaşı, düşmənləri də çoxalır. Günlərin birində şairi sevməyənlər onu müxtəlif bəhanələrlə günahlandırırlar. Haqsızlıqla üz-üzə qalan Zakir sürgün həyatı yaşamalı olur. Dostlarının, xüsusən də M.F.Axundzadənin səyi ilə sürgündən azad olunub Şuşaya qayıdır. Lakin qoynunda doğulduğu bu gözəl diyara qayıtsa da, sonrakı həyatını pristav nəzarəti ilə yaşamalı olur. Keçirdiyi sarsıntılar, çəkdiyi əzab-əziyyət onu üzüb əldən salır. Üzləşdiyi haqsızlığa, ədalətsizliyə tab gətirə bilməyən şair 1857-ci ildə Şuşada dünyasını dəyişir və Mirzə Həsən qəbiristanlığında dəfn olunur.

Ədəbiyyat tariximizi yazdığı əsərləri ilə zənginləşdirən Qaşım bəy Zakir xalqımızın yaddaşında əbədi yaşayacaq və daim xatırlanacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Yaradıcı ziyalılarımız

## Həyatın keşməkeşlərində keçən şair ömrü

**Onun uşaqlıq çağları ölkədə gərgin ictimai-siyasi hadisələrin bir-birini əvəz etdiyi illərdə keçdi. O vaxtlar gördüyü dəhşətləri, çəkdiyi acıları kim Mirvarid xanımın özü kimi təsvir edə bilər ki?! "Mən ölümlər və sürgünlər, qadağanlar, milli qırğınlar və soyğunlar, milli təhqirlər, milli əsarət görmüş nəslin nümayəndəsiyəm. Uşaqlığım zəhərə batırılmış badam içinə oxşayır". 1998-ci ilin yanvarında "Biz od üstündə doğulduq" adlı məqaləsində yasadığı bu sətirlərlə Mirvarid xanım təlatümlər içərisində keçən illərin ağrısını unutmadığını bəlli edirdi...**



1912-ci il avqustun 19-da Qazax qəzasının Musaköy (indiki Xanlıqlar) kəndində dünyaya gələn Mirvarid xanım Azərbaycanın məşhur nəsillərindən birinin, tarixi mənbələrdə Qaray, Qaraylı, Qaraman kimi bəhs edilən - Dilbazilərin qızı idi. Dilbazi adı ulu babaları Molla Ali ağanın ləqəbi olmuşdu. Araşdırıcılar əvvəlki adının Xanoğulları kimi qeyd edildiyini, Xanlıqlar kəndinin onların tarixi yurd yerləri olduğunu bildiriblər.

Bir sıra sahələrdə istedadları, bacarıqları ilə məşhur olan Dilbazilərə şairlik şöhrətini Mirvarid Dilbazinin ulu babası, "Şair" təxəllüsü ilə şeirlər yazan Əbdürrəhman ağa gətirib. Əbdürrəhman ağa Dilbazinin adı Azərbaycan ədəbiyyatı tarixinə düşüb.

"Nəslimizdə müdrik, xalq hörməti qazanmış, Tiflisdə, Gəncədə mötəbər sayılan, çoxsaylı ziyalı dostları olan Böyük ağa, Çingiz ağa, Əbdürrəhim ağa, Baba Hüseyn ağa, İsmayıl ağa və adlarını unutduğum adlı-sanlı, səxavətli, xeyirxah yaşlı nəsli təmsil edən kişilər də yetişmişdi. Cavan atam da əmizadələrinin xeyirxah duyğuları ilə tərbiyələnib, inkişafa can atırdı", - deyirdi şair.

Mirvarid Dilbazi 1994-cü ildə çap olunmuş "Bənövşələr üstə göz yaşları" xatirələr kitabında bəhs etdiyi atası Paşa bəy cavan yaşında vəfat edib. Mirvarid xanım Daş Salahlı kəndində babası Mustafa ağanın mülkündə yaşadı. Həmin kənddəki Heydər əfəndinin ibtidai məktəbində təhsil almağa başladı. Anası və bacısı ilə 1921-ci ildə Bakıya köçdü. Mirvarid xanım xatirələrində bu barədə yazıb: "Atamın şəhid olmasıyla doğma kəndimizdən, buz bulaqlı meşələrimizdən ayrılıb, anamızın göz yaşlarını qəlbimizə axıda-axıda bacımla mənim Daş Salahlı və şəhər həyatımız başlayıb".

Mirvarid xanım bacısı Yaqut xanımla birgə Qızlar Seminariyasında təhsilini davam etdirdi. Seminariyada böyük həvəslə, sonsuz maraqla oxuyub-öyrənirdilər. Maddi çətinliklərin, mənəvi zərbələrin onları ruhdan salmağa gücü yetmirdi. İyirmi altı yaşından dul qalan, iki qızına ümid bağlayan anaları ilə keçən o ağrılı-acılı günləri Mirvarid xanımın xatirələrində belə qalmışdı: "Bacım Yaqutla mən bir "ləğv" olunmuşların qalqısı idik. Odur ki, bizim haqqımızda yaxşı insanlar yaxşı söz deməkdən çəkinirdilər. Şükür ki, pis söz də deyən yoxdu. Mərkəzdə oxuduğumuz ali məktəblərdən Xanlıqlar, Daş Salahlı kəndlərinə bizim haqqımızda göndərilən sorğulara xeyrimizə cavablar gəlirdi. Biz iki bacı, bir ana camaatın köməyi ilə sürgünlərdən, qırğınlardan uzaq olduq. Lakin maddi məhrumiyyətin pəncəsindən qurtara bilmədik. Çünki var-yoxumuz babamın evində qalmışdı". Onlar İçərişəhərdə məşhur folklorşünas Əbülqasım Hüseynzadənin evində balaca bir otaqda qalırdılar.

Mirvarid Dilbazi Qızlar Seminariyasını bitirib Biləcəridəki onillik dəmiryol məktəbində işə başladı. Tezliklə bacarıqlı müəllim kimi tanındı. 1928-ci ildən şəhərdə rus məktəbində dərs dedi. Ali təhsil almaq arzusunu reallaşdırdı. Bacısı Yaqut xanım da, o da Ali Pedaqoji İnstituta daxil oldular. Maddi vəziyyətləri ağır idi. Yaqut xanım 19 nömrəli məktəbdə işlədi ki, kiçik bacısı ali təhsil ala bilsin. 1929-cu ildən Ali Pedaqoji İnstitutun Ədəbiyyat-ictimaiyyat fakültəsində oxuyan Mirvarid xanım Əli Nazim, Əli Sultanlı, Bəkir Çobanzadə kimi böyük pedaqoqlardan dərs aldı.

O, bədii yaradıcılığa təhsil illərində başladı. "Qadınların hürriyyəti" adlı ilk şeiri 1927-ci ildə "Oktyabr alovları" adlı jurnalda dərc edildi. 1920-ci illərin sonlarında yazdığı "Zəhra", "Qurtuluş", "Qadın" şeirləri də həmin jurnalda işıq üzü gördü.

1932-ci ildə ali məktəbi bitirdi. Təyinat üzrə Quba Partiya Məktəbində müəllim işlədi. Bakıya iki il sonra qayıtdı. 1934-1938-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Əlyazmaları Fondunda şöbə müdiri, 1938-1940-cı illərdə Azərbaycan Dövlət Nəşriyyatında tərcüməçi kimi fəaliyyət göstərdi.

Sovet hakimiyyətinin repressiya siyasətinin vurduğu ağır yaralar Mirvarid Dilbazinin də qəlbinin əbədi ağrısı oldu. 1920-ci ildə, Aprel işğalından sonra üzləşdikləri faciələri qüssə ilə yada salırdı Mirvarid xanım. "37-ci ilin fəlakətli günləri, gecələr döyülən qapılar, 18 yaşlı dayımın aparıldığı qara maşının arxasınca tökülən göz yaşlarımız, onun Sibir cəhənnəmindən gələn məktubları, babamın həbsi, daha nələr... nələr...". Mirvarid Dilbazinin babasının qəbri 18 yaşlı oğlu ilə birlikdə Qazaxıstan çöllərində qumlar altda qaldı. Ağbirçək nənəsi ordan tək qayıtdı. Mirvarid xanım yazırdı ki, ziyalı dayılarının qəbirləri Türkiyənin Amasiya şəhərində bir dağ ətəyində, anasının, nənəsinin qəbirləri Bakıdadır.

Onun həyatı kimi, yaradıcılıq yolu da asan olmadı. Qələmdən, əməkdən, qeyrətdən, xalqına, sənətinə məhəbbətdən başqaköməkçisi olmayan isdedadlı şair bütün mənəvi ağrılarına, maddi ehtiyaclarına, repressiya siyasətinin gətirdiyi təhlükələrə, qorxulara rəğmən, yazıb-yaratdı. O, şeirlər, "Məhsəti", "Əlcəzairli qız", "Partizan Aliyə", "Aveydağla söhbət" və digər poemalarını, "Xocalı fəryadı", "Məhsəti" pyeslərini qələmə aldı. Xaqani Şirvani, Nizami Gəncəvi, Əlişir Nəvai, Aleksandr Puşkin, Taras Şevçenko, Nikolay Tixonov, Samuel Marşak və başqa şairlərin əsərlərini, Evripidin "İppolit" faciəsini dilimizə tərcümə etdi. Öz əsərləri də xarici dillərə tərcümə olundu. Fikrət Əmirov, Süleyman Ələsgərov, Tofiq Quliyev, Şəfiqə Axundova, Ağabacı Rzayeva və başqa bəstəkarlar Mirvarid Dilbazinin sözlərinə mahnılar, romans və oratoriyalar bəstələdilər.

Mirvarid Dilbazi müxtəlif illərdə Xalq şairi, Əməkdar mədəniyyət işçisi fəxri adlarına, Dövlət mükafatına, "Əmək igidliyinə görə" medalı, iki dəfə "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı", "İstiqlal" ordenlərinə layiq görüldü.

Həyatı kəşməkeşlər içərisində keçən şair ahıl çağında bütün dərdlərini üstələyən Qarabağ dərdini də gördü. Mirvarid Dilbazi 2001-ci il iyulun 12-də Qarabağ nisgili ilə dünyadan köçdü.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Türkiyədə keçiriləcək "Elvedasız şarkılar" adlı musiqi layihəsi Azərbaycana həsr olunacaq




Türkiyədəki səfirliyimizin nəzdində Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə qardaş ölkənin turizm bölgələrində keçirilən ənənəvi "Elvedasız şarkılar" adlı növbəti xeyriyyə konserti Azərbaycana həsr olunacaq.

Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə avqustun 28-də Marmaris şəhərində altı min nəfərlik tarixi amfiteatrda baş tutacaq konsertdə hər iki ölkənin sənətçiləri iştirak edəcəklər. Datça - Kimsəsiz uşaqlar üçün şəhərciyə yardım məqsədilə təşkil olunacaq konsert proqramında Azərbaycan və Özbəkistanın xalq artisti Gülyanaq Məmmədova, gənc azərbaycanlı müğənni, vokalist Aynur İsgəndərli, Azərbaycan Mədəniyyət Mərkəzinin rəqs ansamblı səhnəyə çıxacaqlar.

Konsert proqramında Türkiyə tərəfindən məşhur müğənnilər Murat Kekilli, Fatih Erkoç, Yeşim Salkım, Bora Gencer, Nühket Duru, Ozan Orhon və başqaları çıxış edəcəklər.

## Klassik avtomobillərin yürüşünə qoşulmaq üçün qeydiyyat başa çatır




Azərbaycan Avtomobil Federasiyasının (AAF) təşkilatçılığı ilə paytaxtda keçiriləcək klassik avtomobillərin yürüşü və sərgisinə qeydiyyatın başa çatmasına 1 gün qalıb. "Report" xəbər verir ki, artıq ənənə halını alan yürüşdə 1984-cü ilədək istehsal olunan avtomobillər iştirak edə bilər.

Klassik avtomobil sahibləri avqustun 15-nədək AAF-ın elektron ünvanı info@faa.az və ya +99450 295 01 00 nömrəsinə müraciət etməklə yürüşdə iştirak üçün qeydiyyatdan keçə bilərlər.

Yürüşdən əvvəl Dənizkənarı Milli Parkda klassik avtomobillərin sərgisi təşkil olunacaq. Dənizkənarı Milli Parkdan start götürən yürüş paytaxt küçələri, Heydər Əliyev Mərkəzinin qarşısından keçməklə "Dreamland Golf Club"da başa çatacaq. Yürüşdə AAF-da qeydiyyatdan keçən avtomobillərlə yanaşı, Heydər Əliyev Mərkəzindəki daimi sərgidə nümayiş olunan bəzi klassik avtomobillər də iştirak edəcək. Marşrutun sonunda "Dreamland Golf Club"da klassik avtomobillərin sərgisi keçiriləcək. Burada tanınmış ifaçıların iştirakı ilə retro tərzdə konsert və əyləncə proqramı təqdim ediləcək, viktorinalar, geyim və avtomobillər üzrə müxtəlif nominasiyalarda qaliblər seçiləcək.

# "Qarabağ" üçüncü dəfə pley-offda

**Ağdamın "Qarabağ" klubu UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində cavab oyununa çıxıb. İlk matçda Bakıda Bolqarıstan "Ludoqorets"inə 1:2 hesabı ilə uduzan Qurban Qurbanovun komandası həmin məğlubiyyətin əvəzini səfərdə artıqlaması ilə çıxıb. Görüş ağdamlı futbolçuların 7:2 hesablı qələbəsi ilə başa çatıb. Bununla da, "Qarabağ" Çempionlar Liqasının pley-offuna vəsiqə qazanıb. Bu mərhələdə rəqib Xorvatiyanın "Dinamo"(Zaqreb) klubu olacaq.**

**UEFA Çempionlar Liqası**
**3-cü təsnifat mərhələsi, cavab oyunu**

"Ludoqorets" (Bolqarıstan) - **"Qarabağ" (Azərbaycan)** - 2:7 (İlk oyun - 2:1)

***Qollar:*** Juninyo, 7 (0:1), Kvadvo Dua, 13 (1:1), 23-pen. (2:1), Yassin Benzia, 45+1-pen. (2:2), Patrik Andrade, 45+5 (2:3), Toral Bayramov, 93 (2:4), Redon Cica, 110 (2:5), Patrik Andrade, 112 (2:6), Yassin Benzia, 118 (2:7)






Möhtəşəm nəticədir. "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovun istədiklərini futbolçular cavab matçında həyata keçirməyi bacardılar. Matçın gedişatında zədələnən Yankoviç və Veşoviçin əvəzinə meydana daxil olan Patrik Andrade və Matehus Silva topun mərkəzdə qalmasına və sağ cinahda sürətli oyuna imkanlar yaratdılar. "Qarabağ" ilk növbədə psixoloji, sonra isə fiziki olaraq "Ludoqorets"i üstələdi.

Əslində, Bakıdakı ilk oyunda da Bolqarıstan çempionu qeyri-adi heç nə etməmişdi. Müdafiədə oturaraq imkan düşdükcə sürətli hücumlara qoşulmağa çalışmışdı. Hücumlarının effektiv alınması isə futbolçularının sırf fərdi ustalığının yüksək olması idi. Halbuki əlində bu cür futbolçuları olan klub oyunboyu dominantlıq da edə bilərdi. Amma "Qarabağ"ın gücü rəqibi fərqli oyun anlayışı seçməyə məcbur etmişdi.

"Ludoqorets"də qapıçı ilə mərkəz müdafiəçiləri arasında koordinasiya zəif olduğundan uzaqdan zərbələr çox önəmli idi. İlk hissədə mərkəz müdafiəçilərinə edilən basqı öz nəticəsini verdi. Çünki rəqibin mərkəz müdafiəçiləri edilən pressinqdən sonra çətin vəziyyətə düşürdülər. Juninyo bu imkandan yararlandı və Avropa səviyyəsində güclü hücumçu olduğunu növbəti dəfə nümayiş etdirdi.

Eyni zamanda uzaqdan endirilən zərbələr də bu qarşılaşmada öz bəhrəsini verdi. Patrik Andrade və Toral Bayramov möhtəşəm qollarla yadda qaldılar.

Əsas məsələ Ağdam klubunun qapıçısı Fabyan Buntiçin oyuna qoşulmamasıdır. Şahruddin Məhəmmədəliyev topu oyuna müdafiəçi kimi daxil etməyi bacarır, sanki meydan oyunçusuna çevrilirdi. Buntiç isə "ancaq çərçivədə səni xilas edə bilərəm, başqa heç nə istəmə" görüntüsünü verirdi. Bu isə komandanın qarşıdakı oyunlarda mənfi tərəflərindən biri kimi diqqətə alınmalıdır.

"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov komandasının 7:2 hesablı qələbəsini belə şərh edib: "Startda hesabı açsaq da, sonra demək olar ki, heç nədən qapımızda standart vəziyyətdən iki qol gördük. Bəlkə də rəqibin ən üstün cəhəti olan əks-hücumlarda bir qədər diqqətsiz olduq. Amma get-gedə oyunu ələ almağı bacardıq. Matçdan əvvəl də futbolçularla söhbətimiz olmuşdu ki, sona qədər soyuqqanlı və oyunun içində olmaq çox vacibdir".

O qeyd edib ki, futbolçularına ancaq əhsən düşür: "Azarkeşlərimizi, Azərbaycanımızı təbrik edirəm. Qalibiyyət öz yerində, amma ümumən bu cür oyunlar futbolçularımızı böyüdür, klub olaraq böyüyürük, daha xarakterli oluruq. Futbol daha da sevilir. Əsas da azarkeşlərdə adrenalin görəndə buna şad oluram. Bu gün sanki bir triller idi. Bu, mənim "Qarabağ"ım idi, Azərbaycanın "Qarabağ"ı idi".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# *IDEA:* Baxımsız qalmış fayton atı reabilitasiyaya cəlb olunub

Baxımsız halda qalmış və ayaqları zədələnmiş fayton atı Heydər Əliyev Fondunun vitse-prezidenti və IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın göstərişi ilə müvafiq qayğı tədbirləri üçün reabilitasiyaya cəlb olunub.






Bu barədə IDEA İctimai Birliyindən AZƏRTAC-a məlumat verilib.

Qeyd edək ki, at xüsusi nəqliyyat vasitəsilə IDEA Heyvanlara Qayğı Mərkəzinə gətirilib, burada ilkin baytarlıq müayinəsindən keçirilib və təyin olunmuş müalicəsinə başlanılıb. Hazırda atın həyatına hər hansı təhlükə yoxdur. Mərkəzdə baxımsız qalmış atın tam sağalması üçün zəruri baytarlıq tədbirləri davam etdiriləcək.

Xatırladaq ki, son günlərdə sosial şəbəkələrdə Qız qalası yaxınlığından "Azneft" meydanı istiqamətində turist daşımaq üçün istifadə edilən fayton atının baxımsız qalması ilə bağlı məlumat yayılmışdı.

# İqtisadi fəal əhalinin sayı 5,3 milyona yaxınlaşır

Cari il avqustun 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, iqtisadi fəal əhalinin sayı 5288,9 min nəfər olub, onlardan 5005,2 min nəfərini məşğul əhali təşkil edib.



Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, cari il iyulun 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1760,8 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 887,5 min nəfər, qeyri-dövlət sektorunda isə 873,3 min nəfər olub. İqtisadiyyatın neft-qaz sektorunda 31,8 min nəfər, qeyri neft-qaz sektorunda isə 1729,0 min nəfər çalışıb. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,1 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,3 faizi emal sənayesində, 7 faizi tikintidə, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,9 faizi mədənçıxarma sənayesində, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,5 faizi təhsil, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,8 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi istirahət, əyləncə və incəsənət, 2,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 1,9 faizi informasiya və rabitə, 1,1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışıblar. Bu ilin II rübünün sonuna ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş və müddəti uzadılmış iş icazələrindən qüvvədə olanlara malik olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 5042 nəfər olub. Onlardan 46,1 faizi tikintidə, 8,7 faizi emal sənayesində, 8 faizi mədənçıxarma sənayesində, 7,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 4,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 4,2 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi və 21,1 faizi digər sahələrdə məşğul olmaq üçün iş icazələrinə malik olub.

Bu ilin birinci yarımilində bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 141,8 saat təşkil edib.

2024-cü il avqust ayının 1-i vəziyyətinə Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 218,5 min nəfər olub, onların 45,3 faizini qadınlar təşkil edib. İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği 407,4 manat olub.

# Füzuli şəhərində məktəblilərin yay düşərgəsi təşkil olunacaq

Avqustun 15-dən 20-dək Füzuli şəhərinin məktəbliləri üçün yay düşərgəsi təşkil olunacaq. Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, yay düşərgəsi nazirliyin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi, Ağdam, Füzuli və Xocavənd üzrə Prezidentin xüsusi nümayəndəliyinin dəstəyi ilə həyata keçiriləcək.




Qazaxıstan Respublikası tərəfindən tikilib istifadəyə verilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində keçiriləcək düşərgənin məqsədi yay tətili müddətində doğma yurda qayıtmış Füzuli məktəblilərinin asudə vaxtının maraqlı və əyləncəli təşkilidir.

"Füzulidə yay məktəbi" adlı layihədə Özbəkistan Respublikası Prezidentinin hədiyyəsi olan Uluqbəy adına 1 nömrəli tam orta məktəbin şagirdləri də iştirak edəcəklər. Yay məktəbi çərçivəsində 200-dək şagird maraqlı proqramla vaxtlarını səmərəli keçirə biləcək. Aksiya müddətində tanınmış təhsil, sənət, idman xadimləri müxtəlif təqdimatlarla çıxışlar edəcək, əyləncəli məzmunlu proqram təşkil olunacaq.

Yay məktəbinin ikinci günündə Qarabağ bölgəsi musiqi məktəblərinin şagirdləri Əməkdar artist, xanəndə Təyyar Bayramovun müşayiəti ilə "Qarabağ bülbülləri" Füzulidə" adlı konsert proqramı ilə çıxış edəcəklər.

Digər günlərdə Xalq artistləri - opera müğənnisi Samir Cəfərov və aktyor Vidadi Həsənov, yazar, ədəbiyyatşünas Ramil Əhmədin müvafiq sahələr üzrə ustad dərsləri təşkil olunacaq.

Yay məktəbi müddətində şagirdlərin valideynləri ilə müxtəlif məkanlarda görüşlərin keçirilməsi, məsləhət saatlarının təşkili, eləcə də açıq məkanda əyləncəli yarışmalar nəzərdə tutulur.

# *DİN:* 75 cinayətin üstü açılıb

Avqustun 13-də ölkə ərazisində qeydə alınan 48, əvvəlki dövrlərdən bağlı qalan 27 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 92, o cümlədən borclu şəxs qismində axtarışda olan 70 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqədar 21, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 8 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 39 nəfər saxlanılıb.

# *Gülnarə ABBASOVA:* "Gözlənilən hava şəraiti ilə bağlı əhalini ehtiyatlı olmağa çağırırıq"



"Respublikanın bəzi ərazilərində avqustun 15-dən 17-si gündüzədək hava şəraitinin dəyişəcəyi, yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı, dolu düşəcəyi və "sarı" xəbərdarlığa uyğun olaraq külək əsəcəyi proqnozlaşdırılır. Gözlənilən intensiv yağıntılarla bağlı çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın, həmçinin Lənkəran-Astara bölgəsinin bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimal olunur. Bu səbəbdən vətəndaşlarımızı daha diqqətli və ehtiyatlı davranmağa çağırırıq". AZƏRTAC xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəsmisi Gülnarə Abbasova bildirib.

Onun sözlərinə görə, fəsadlardan qorunmaq üçün əhali hava haqqında verilən xəbərdarlıqları və hava proznozlarını diqqətlə izləməlidir: "Unutmayaq ki, ehtiyatlı davranmaq hər birimizin sağlamlığı və təhlükəsizliyi üçün vacibdir".

# Şamaxı növbəti Üzüm və Şərab Festivalına hazırlaşır

Sentyabrın 7-8-də Şamaxıda ənənəvi Üzüm və Şərab Festivalı keçiriləcək. AZƏRTAC xəbər verir ki, festival Dövlət Turizm Agentliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Şamaxı rayonunun Meysəri kəndində baş tutacaq.




Festivala iTicket.az saytından qeydiyyatdan keçərək qoşulmaq olar. Ziyarətçilərin festival məkanına çatdırılması və geri dönməsi üçün Heydər Əliyev Mərkəzinin qarşısından nəqliyyat da təşkil olunacaq.

Artıq üçüncü dəfə keçirilən festivalın məqsədi yerli üzüm və şərab istehsalının təşviqi, ölkəmizdə üzümçülük və şərab istehsalı tarixini, bu sahədə görülən işləri geniş ictimaiyyətə çatdırmaqdır.

"Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksinin ərazisində təşkil olunacaq festivalda ziyarətçilər üzüm istehsalı və şərabçılıq, Azərbaycanın turizm potensialı ilə daha yaxından tanışlıq imkanı qazanacaq, müxtəlif əyləncə və şou proqramlar təqdim olunacaq. Festivalda yerli və xarici istehsalçıların şərab məhsullarının dequstasiyaları təşkil ediləcək, şərab evlərinin maraqlı hekayələrini izləmək imkanı yaradılacaq. Ölkəmizin ayrı-ayrı bölgələrindən olan üzüm emalı və şərab istehsalı zavodları çeşidli şərablarını nümayiş etdirəcək, ziyarətçilər bəyəndikləri məhsulları ən sərfəli qiymətə əldə edə biləcəklər. Üzüm və Şərab Festivalı həm də şərab istehsalçılarına yeni işgüzar əlaqələr qurmaq, məhsullarını geniş auditoriyaya tanıtmaq üçün gözəl fürsətdir.

Azərbaycanda ənənəvi təşkil olunan Üzüm və Şərab Festivalı yerli sakinlər və turistlərin böyük marağına səbəb olur. Festivalın məkanı kimi Şamaxının seçilməsi də təsadüfi deyil. Şamaxı Azərbaycanın aparıcı aqrar rayonlarından biri olmaqla yanaşı, həm də ölkə şərabçılığının, üzüm istehsalının paytaxtı kimi tanınır. Azərbaycanda üzümçülüyün inkişafı ilə bağlı mühüm addımlar atılır, dövlət proqramları icra edilir. Üzüm və Şərab Festivalı kimi tədbirlər isə dövlətin bu istiqamətdəki siyasətinə önəmli dəstəklərdəndir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin kollektivi Nizami rayon prokuroru Pərviz İbayevə atası

**MANSUR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ənvər Seyidov Nizami rayon prokuroru Pərviz İbayevə atası

**MANSUR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azər Orucov və Rauf Aslanov Nizami rayon prokuroru Pərviz İbayevə atası

**MANSUR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyevə əzizi

**MANSUR İBAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev və ittifaqın üzvləri ittifaqın üzvü, sabiq hakim

**MANSUR İBAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru






www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3855
Sifariş 1811

Qiyməti 60 qəpik